Günəş Şərqdən doğur!

№ 65 (5346), 2021-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 15 aprel 2021-ci il (cümə axşamı)




## İnsanlar çox əziyyət çəkir

Heç olmasa şənbə günləri ictimai nəqliyyatın işi bərpa olunmalıdır (Səh.8)

### Günün içindən...



## "Zəngəzur dəhlizi reallığa çevrilir"

Azərbaycan Prezidenti: "Biz çoxtərəfli əməkdaşlığa ümid bəsləyirik"

Dünən sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mətbuata bəyanatlarla çıxış ediblər.

(səh.2)

## "Görünür Fransa səfirinin ləyaqət anlayışı fərqlidir"



XİN Fransanın Ermənistandakı səfirinə cavab verdi (səh.4)

# Yarım milyon hərbçi hərəkatə keçdi



## Müharibə addım-addım yaxınlaşır

**Son dəqiqə xəbərlərə görə, Rusiya ordusu son 50 ilin ən böyük həmləsini etdi. Qara dənizin üzərində rus savaş təyyarələri havalanıb, açıqlamalar arxa - arxaya gəlir.**

Bu arada ABŞ hərbi gəmilərini Qara dənizə göndərmək planı təxirə salınıb.

(səh.3)

## Minsk qrupu söz haqqını çoxdan itirib

"Yenidən meydana çıxıb təkliflər səsləndirmək arxadan atılan daş effekti yaradır"

(səh.8)




## "Bizə yaraşan iş deyil"



Şuşaya, Kəlbəcərə, Ağdama giriş pullu ola bilməz

(səh.7)

## Bakıda qadın körpəsini küçəyə atıb, qaçmaq istəyib

Onlar sığınacağa çatanda uşaq ac idi

(səh.8)



## Ermənistanın canına Zəngəzur qorxusu düşüb

Ona görə sərhədlərində Rusiyanın hərbi bazasını qurmağa çalışır (səh.6)

## Eyni məktəbin 2 müəllimi koronavirusdan vəfat etdi

(səh.9)

## Türkiyənin yeni raketi hədəfləri dəqiq vurdu

İsrail, ABŞ və İngiltərədə hələ bu silahların tədqiqatları aparılır (səh.7)

## Daha 2 293 nəfər koronavirusa yoluxub

31 nəfər vəfat edib, 2 071 nəfər müalicə olunaraq sağalıb (səh.9)

# "Zəngəzur dəhlizi reallığa çevrilir"

## Azərbaycan Prezidenti: "Biz çoxtərəfli əməkdaşlığa ümid bəsləyirik"

Dünən sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev bəyanatla çıxış edib.

**- Hörmətli Aleksandr Qriqoryeviç.**

**Hörmətli qonaqlar.**

**Xanımlar və cənablar.**

Aleksandr Qriqoryeviç, Sizi Azərbaycanda bir daha səmimi qəlbdən salamlayıram. Sizin səfəriniz ölkələrimiz arasında dostluq münasibətlərinin daha da inkişaf etməsi üçün çox böyük əhəmiyyətə malikdir. Səfər dünən başlanıb. Dünən biz ətraflı söhbət apardıq, ikitərəfli gündəliyə aid praktiki olaraq bütün məsələləri, habelə regional problemləri müzakirə etdik. Mən Dağlıq Qarabağ münaqişəsi həll ediləndən sonra yaranmış vəziyyət barədə Aleksandr Qriqoryeviçi məlumatlandırdım. Müzakirə etdiyimiz bütün məsələlər barədə tam qarşılıqlı anlaşma var.

Bu gün danışıqlar davam etdi. Biz xarici işlər nazirlərinin, habelə nümayəndə heyətlərinin üzvlərinin iştirakı ilə geniş tərkibdə ətraflı söhbət apardıq. Bizim münasibətlərimiz artıq zamanın sınağından çıxıb. Bu münasibətlərin çox yaxşı tarixi var. Biz qarşılıqlı əlaqələrimizin bütün dövründə həmişə münasibətlərimizin inkişafı ilə bağlı məsələləri həll etmişik. Bizim aramızda heç vaxt həll edilməmiş və ya hansısa operativ müdaxilə tələb edən məsələlər olmayıb. Biz hədəflərimizi çox dəqiq müəyyən etmişik, icraçılara konkret tapşırıqlar vermişik və qarşıya qoyulmuş məsələlərin reallaşdırılmasına nəzarət etmişik. Bundan ötrü müntəzəm görüşlər keçirmişik və keçiririk. Mən dəfələrlə Belarusa, Aleksandr Qriqoryeviç isə Azərbaycana səfər edib. Bizim görüşlərimiz müntəzəm xarakter daşıyır və yenə də belə olacaq. Pandemiya ilə əlaqədar bir qədər fasilə yaranıb, lakin vəziyyət imkan verən kimi biz Aleksandr Qriqoryeviçi salamlamağa çox şadıq və Azərbaycana səfər etməsi barədə dəvətimizi qəbul etdiyi üçün ona təşəkkürümü bildirmək istərdim.

Siyasi baxımdan müntəzəm surətdə həm dövlət başçıları, həm də xarici siyasət idarələrinin başçıları səviyyəsində məsləhətləşmələr aparılır. Biz fəal əməkdaşlıq edirik, beynəlxalq strukturlarda bir-birimizi dəstəkləyirik və gələcəkdə də belə edəcəyik.

Bu gün hökumətlərarası komissiyaların həmsədrləri və nümayəndə heyətlərinin üzvləri görülmüş işlər barədə məruzə etdilər. Nazirlər və nümayəndə heyətlərinin üzvləri dünən görüşüblər. Beləliklə, dünənki gün həm də münasibətlərimizin daha da möhkəmlənməsi məsələlərinə həsr edilib, əmtəə dövriyyəsinin şaxələndirilməsi və artırılması çərçivəsində gələcək əməkdaşlığın konkret istiqamətləri müəyyən edilib. Ötən il əmtəə dövriyyəsi xeyli artıb, lakin bu əsas etibarilə Belarusa xam neftin çatdırılması hesabına mümkün olub.

Bu ilin birinci rübündə xam neftin çatdırılması daha böyük həcmdə davam edib və düşünürəm ki, keçənilki həcmi əhəmiyyətli dərəcədə üstələyəcəyik. Marşrut artıq testlənib, layihə qarşılıqlı faydalıdır. Təbii ki, biz bu sahədə əməkdaşlığı genişləndirmək, məhz energetika sahəsində əməkdaşlığın genişləndirilməsi məsələlərini nəzərdən keçirmək niyyətindəyik, yəni Belarusun neftayırma zavodlarına təkcə xam neft çatdırmaqla kifayətlənməyəcəyik.

Biz Qarabağda işğaldan azad olunmuş ərazilərin bərpasında bir sıra istiqamətlər üzrə - həm şəhərsalma, həm infrastrukturun yaradılması, kənd təsərrüfatının inkişafı sahələrində Belarus şirkətlərinin gələcək iştirakı ilə bağlı məsələləri ətraflı müzakirə etdik.



*"Qarabağın bərpası layihələrində üç dost ölkədən olan şirkətlər artıq işləyirlər. Ümidvarıq ki, dördüncü ölkə Belarus olacaq"*



Biz dünən də, bu gün də Belarusun aqroşəhərciklər yaradılması sahəsində təcrübəsini geniş müzakirə etdik. Mən Aleksandr Qriqoryeviçə məlumat verdim ki, Qarabağ "yaşıl enerji" zonası elan edilib və birinci "ağıllı kənd" layihəsi praktiki olaraq həyata keçirilməyə hazırdır. Əlbəttə, bu sahədə Belarusun təcrübəsi nəzərə alınmaqla bu istiqamətdə işləmək çox maraqlı olardı. Mən daha sonra dedim ki, biz ərazilərin bərpası işlərinə yalnız dost ölkələrdən olan şirkətləri cəlb edəcəyik. Belarus da Azərbaycan üçün belə ölkədir. Qarabağın bərpası layihələrində üç dost ölkədən olan şirkətlər artıq işləyirlər. Ümidvarıq ki, dördüncü ölkə Belarus olacaq. Biz bu sahədə məsləhətləşmələri davam etdirmək üçün Azərbaycan hökumətinin üzvlərinin Belarusa səfərləri barədə artıq razılıq əldə etmişik.

Bizim hazırladığımız ilk nəşrin bir nüsxəsini Aleksandr Qriqoryeviçə təqdim etdim. Həmin nəşrdə bizim azad etdiyimiz şəhərlərin işğaldan əvvəlki fotoşəkilləri və erməni işğalçılar tərəfindən həmin torpaqlarda törədilmiş vandalizmin və barbarlığın fotoşəkilləri var.

Hesab edirəm ki, münaqişədən sonrakı inkişafla bağlı vəziyyət bütövlükdə müsbət səciyyələndirilə bilər. Mən münaqişədən sonrakı vəziyyətin inkişafına bizim yanaşmalarımız və bu haqda bizim təsəvvürümüz barədə Aleksandr Qriqoryeviçi məlumatlandırdım. Şübhəsiz, Azərbaycanın mövqeyini bildirim ki, biz belə hesab edirik və reallıq da belədir ki, Dağlıq Qarabağ münaqişəsi nizamlanıb. Azərbaycan onu müstəqil surətdə nizamlayıb, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini yerinə yetirib. Bu qətnamələr 27 il ərzində kağız üzərində qalıb və təəssüf ki, onların implementasiyası mexanizmi işə salınmayıb. Minsk qrupunun həmsədr ölkələrinin erməni tərəfinə müraciətlə işğala son qoymaq çağırışları da yerinə yetirilməyib. Həmsədrlərin status-kvonun qəbuledilməzliyi barədə bəyanatları erməni tərəfindən eşidilməyib.

Ermənistanın başına gələnlərin təqsirkarı məhz 20 il ərzində ölkəni uçuruma aparan Ermənistan rəhbərliyidir. İkinci Qarabağ müharibəsi Ermənistan ordusunun alçaldıcı məğlubiyyəti və tamamilə darmadağın edilməsi ilə başa çatıb. Bunun əsas təqsirkarları Ermənistanda bundan əvvəl hakimiyyətdə olanlardır. Biz tarixin bu səhifəsini çevirmək istəyirik, biz etimad tədbirlərinin möhkəmlənməsinə və bu gün həm Azərbaycan-Ermənistan-Rusiya baş nazirlərinin müavinləri səviyyəsində üçtərəfli işçi qrupu çərçivəsində, həm də qonşu ölkələr - Türkiyə və İran ilə bizim məsləhətləşmələrimiz çərçivəsində müzakirə edilən nəqliyyat-logistika layihələrinə istiqamətlənmişik. Beləliklə, Zəngəzur dəhlizi reallığa çevrilir. Biz çoxtərəfli əməkdaşlığa ümid bəsləyirik.

***

*Sonra Belarus Prezidenti Aleksandr Lukaşenko bəyanatla çıxış edib.*

- Mənim mövqeyimi bütün dünya bilir, Azərbaycan və erməni xalqları da bilirlər. Mən həmişə həyatı əsas götürmüşəm. İlham Heydər oğlu həmişə şahid olub, hələ onun atası Heydər Əliyev ilə görüşlərdə bu barədə söhbət düşəndə mən həmişə sual edirdim: deyin, Qarabağdakı insanlar son hadisələrə, bu hərbi əməliyyatlara qədər daim zülm altında yaşadıqlarına görə xoşbəxtdirlərmi? Orada onlara yaxşıdırmı? Bir də ki, orada sovet dövründə olanların ondabir hissəsi, bəlkə də daha az hissəsi qalıb. Dözülməz həyatdır. Deməli, bu problemi necəsə həll etmək lazımdır. Mən həmişə açıq danışmışam, bəzən tənqid atəşinə məruz qalmışam, amma bu problemi necə həll etməyin lazım olması barədə öz mövqeyimi bildirmişəm. İlham Heydər oğlu tam səmimi və açıq şəkildə dedi ki, biz problemi sülh yolu ilə həll etmək istəyirdik. Mən bütün bunların şahidi və tərəfdarı olmuşam. Bu gün isə mən həqiqətən həm Azərbaycan xalqını, həm də Ermənistan xalqını onların tarixində bu kədərli, ən azı kədərli dövrün başa çatması münasibətilə təbrik etmək istəyirəm. Əhsən Prezidentə. O dedi ki, biz tarixin bu səhifəsini çevirmək istəyirik. Mənim mövqeyim, mənim arzum budur. Allah eləsin, bu bəla sovuşsun. Ermənistan və Azərbaycan xalqlarının qəlbində kin-küdurət izləri qalmasın. Mən əminəm ki, dostum və qardaşım erməniləri əsla sıxışdırmayacaq, onlarla hesabı çürütmək, qisas almaq fikrinə düşməyəcək. O, savadlı, mədəni insandır. Mən həmişə deyirəm ki, sovet dövründə o, bizim Sovet İttifaqının ən yaxşı ali məktəbini - Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirib. O, postsovet məkanındakı prezidentlər arasında ən savadlı, ən mədəni insandır. Mən həmişə bu barədə də açıq danışmışam. Yəni, mən həmin suala cavab vermişəm, mən hər iki xalqı təbrik etmişəm. Bu problemin həllində onun çox böyük rolunu qeyd etmək istəyirəm. Dünən İlham Heydər oğlu ilə söhbətdə dediyimiz kimi, indi onun necə hisslər keçirdiyini düz duymuşam. Düşünmək olardı ki, bəli, qələbə qazanılıb, məsələ həll edilib, vəssalam. Amma ertəsi gün yuxudan oyandım və fikirləşdim ki, bu, yalnız ilk addımdır. Sahəsi Lüksemburqdan 4 dəfə böyük və ya Livanın sahəsinə bərabər, hər halda Livandan kiçik olmayan bu ərazilərdə hələ nə qədər iş görülməlidir! Bu, daha uzunmüddətli və çox çətin epopeya olacaq. Çox istərdim ki, bu, sülh epopeyası olsun.

*Azərbaycanın qarşısında bundan sonra da görüləcək çox işlərin olduğunu qeyd edən Prezident Aleksandr LUKAŞENKO dedi:*

-Mən bunları ona görə deyirəm ki, dünən İlham Heydər oğluna da demişəm, Siz bilməlisiniz, belaruslar Prezident tərəfindən alqışlanan müəyyən mövqe tutublar, biz bundan sonra da özümüzü konstruktiv aparacağıq. Azərbaycan rəhbərliyi də bilmədir ki, belaruslar etibarlı dostlar və etibarlı insanlardır. Bizim razılığa gəldiyimiz bütün məsələlər reallaşacaq. Mən nazirlərə kişi kimi demişəm ki, hər kəs buradan müəyyən həcmdə işlə getməlidir. Belarus naziri burada özünə iş tapmalıdır. Xüsusən ona görə ki, Prezident belaruslar üçün, onların bu son dərəcədə zəngin ölkədə işləmələri üçün qapıları geniş açıb. Bu gün mən açıq etiraf etməliyəm ki, yaxşı mənada heyrətlənmişəm ki, Azərbaycan təkcə, məsələn Böyük Vətən müharibəsi illərində Sovet İttifaqını xilas etmiş çox böyük qaz və neft ehtiyatları demək deyil. Mən tarixdən yaxşı bilirəm. Faşistlər Bakı neftinə ona görə can atırdılar ki, bizim ordumuzu bu neftdən ayırsınlar, onda işimiz bitərdi. Lakin sən demə, Azərbaycanın dəmir filizi ehtiyatları, müxtəlif hesablamalara görə həcmi 15 milyard dollara qədər olan böyük qızıl filizi ehtiyatları da varmış. Ona görə bu, çox zəngin, perspektivli ölkədir, onun böyük gələcəyi var.

**Prezident Aleksandr LUKAŞENKO münaqişənin başa çatmasında Azərbaycan Prezidentinin rolunu bir daha xüsusi vurğulayaraq bildirdi:**

- Allaha şükür, hər şey bitib. Sadəcə, sağ olun ki, bitirdiniz və əminəm ki, Siz tarixin bu səhifəsini çevirəcəksiniz. Azərbaycan məsələyə bu cür yanaşmaqla Azərbaycanda yaşayan ermənilərin boyunlarını əyməyə hazırlaşmır, axı onlar təkcə Qarabağda deyil, başqa yerlərdə də yaşayırlar. Azərbaycanlılardan kimlərinsə erməniləri təhqir etməsi barədə məlumatlar əsassızdır, mən belə nümunələr görməmişəm. Siz bizi haraya çağırsanız hər cür kömək göstərəcəyik. Biz öz variantlarımızı təklif edəcəyik.

Belarus Prezidenti əlaqələrimizin inkişafında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rolunu xüsusi qeyd edərək, eyni zamanda, onun işğaldan azad olunmuş ərazilərimizin bərpası və ölkəmizdə pandemiyaya qarşı mübarizədə fəaliyyətini yüksək qiymətləndirdi.

# Yeni əməkdaşlıq formatları müzakirə olundu

Lukaşenkonun Bakıya səfəri iki ölkə arasında iqtisadi münasibətləri daha da möhkəmləndirəcək

Dünən Prezident İlham Əliyev ölkəmizdə işgüzar səfərdə olan Belarus Prezidenti Aleksandr Lukaşenko ilə təkbətək görüşüb. Liderlər iki ölkə arasındakı ikili əməkdaşlığın mövcud vəziyyətini və əlaqələrin hərtərəfli inkişaf perspektivini müzakirə ediblər.



Təkbətək və geniştərkibli təmaslardan sonra Azərbaycanla Belarus arasında mühüm müqavilələr imzalanıb. Dövlət başçısı İlham Əliyev vurğulayıb ki, Azərbaycan-Belarus münasibətləri hər hansı problemlərdən tamamilə uzaqdır. Ölkə rəhbəri bəyan edib ki, keçən il pandemiyaya baxmayaraq, iki ölkənin əmtəə dövriyyəsi artıb: "Azərbaycandan Belarusa ixrac da artıb. Sənaye kooperasiyası ilə bağlı məsələləri ətraflı müzakirə edəcəyik. Sizinlə birgə qərarımıza əsasən artıq çoxdandır ki, Gəncədəki sənaye müəssisəsi fəaliyyət göstərir. Qarabağın bərpası ilə bağlı məsələləri də Sizinlə müzakirə etmək istərdim. Belarus şirkətlərinin öz ölkənizdə aqrosənaye kompleksləri yaradılması təcrübəsi bizə məlumdur. Buna görə də işğaldan azad edilmiş ərazilərin bərpası baxımından bu mövzu, əlbəttə, xüsusi yer tutur. Sevindirici haldır ki, biz iştirak etdiyimiz beynəlxalq strukturlarda bundan sonra da bir-birimizi dəstəkləməkdə davam edəcəyik. Bizim müntəzəm əlaqələrimiz sadəcə görülmüş işlərə yekun vurmağa, növbəti addımları ölçüb-biçməyə və iki dost, iki tərəfdaş kimi irəliləməyə imkan verir". Belarus Prezidenti Aleksandr Lukaşenko da qeyd edib ki, işğaldan azad edilmiş ərazilərdə həyatın bərpası üçün çox ağır işlər görülməlidir: "Siyasət, iqtisadiyyat sahələrində konkret istiqamətlər baxımından münasibətlərimiz olduqca çoxşaxəlidir və onlara heç nə xələl gətirmir. Biz heç kəsə mane olmuruq və heç kəs də bizə mane ola bilməz. Həqiqətən, Azərbaycan öz milli arzusuna çatmaq yolunda böyük addım atıb. Lakin bu, yalnız ilk addımdır. Qarşıda hələ çox işlər var, işğaldan azad edilmiş ərazilərdə həyatın bərpası üçün çox ağır işlər, dinc işlər görülməlidir".

**Belarus-Azərbaycan münasibətləri ilə bağlı "Şərq"ə danışan Azər Badamov vurğulayıb ki, iki ölkənin əlaqələri prezidentlərimiz arasındakı möhkəm dostluq üzərində qurulub və gündən-günə inkişaf etməkdədir.** Deputatın sözlərinə görə, Lukaşenkonun ölkəmizə növbəti səfəri bu münasibətləri daha da möhkəmləndirmək xarakteri daşıyır: "Belarus hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib və münaqişənin ədalətli həll olunmasının tərəfdarı olub. Bu gün isə torpaqlarımız işğaldan azad edilib və Belarusiya bu ərazilərimizdə quruculuq-abadlıq işlərində iştirak etmək niyyətini açıqlayır. İqtisadi əlaqələrimiz inkişaf edir. 2020-ci il pandemiya dövrünə təsadüf etsə də, ölkələrimiz arası ticarət dövriyyəsi artaraq 500 milyon dolları keçib. Belarus aqrar sahədə uğur qazanmış, aqrar texnikalarının istehsalında böyük təcrübəyə malikdir. Biz Gəncədə Belarus kənd təsərrüfatı maşınları və avadanlıqları istehsalı sahəsində əməkdaşlıq edirik. Amma azad olunmuş ərazilərimizdə də yeni birgə istehsal sahələrini yaratmaq mümkündür. Lukaşenkonun ölkəmizə səfəri çərçivəsində yeni əməkdaşlıq formatları da müzakirə olundu. Ölkələrimiz beynəlxalq siyasi meydanlarda bir-birinin yanında olduğu kimi iqtisadi əməkdaşlığın genişləndirilməsi imkanları da genişdir. Düşünürəm ki, qarşılıqlı səfərlər çərçivəsində ölkələrimiz arasında yeni sənədlər və planlar da müzakirə mövzusu olacaq".

**İsmayıl Qocayev**



## Yarım milyon hərbçi hərəkətə keçdi

Müharibə addım-addım yaxınlaşır

**Rusiya ordusu son 50 ilin ən böyük həmləsini etdi. Qara dənizin üzərində rus savaş təyyarələri havalanıb, açıqlamalar arxa - arxaya gəlir.**

Bu arada ABŞ hərbi gəmilərini Qara dənizə göndərmək planı təxirə salınıb.

Qeyd edək ki, ABŞ iki hərbi gəmisinin İstanbul boğazından Qara dənizə çıxacağı ilə bağlı keçən həftə Türkiyəyə məlumat vermişdi.

Bildirilmişdi ki, ABŞ Donanması gəmilərini Qara dənizə göndərilməsi Ankara ilə imzalanmış Montre konvensiyası çərçivəsində olacaq və iki hərbi gəmi may ayının 4-nə qədər Qara dənizdə qalacaq. Amma sonradan bu plan təxirə salınıb.

Ukraynanın şərqindən yayılan ilk gərginlik günlər içində ABŞ-Rusiya qarşılaşmasına çevrilib, iki super gücün baş-başa gəldiyi Qara dənizdə gözlənilən gün gəldi çatdı. Rusiya prezidenti Vladimir Putin təxminən yarım milyon əsgərə əmr verib.

Rus televiziyaları Qara dənizdəki savaş gəmilərindən xüsusi görüntüləri ekrana gətirib, "Sürətli manevr: Qara dənizdə gəmilər necə manevr edir" başlıqlı materiallar yayıb.

İngilis mətbuatı da yaşanan gərginliklə bağlı "Rusiya və Ukrayna yarım milyon əsgəri hərəkətə keçdi" başlığıyla şərhlər verib.

Rusiyadakı "Exo Moskva" radiosuna danışan mütəxəssislər, Vladimir Putinin son 50 ilin ən böyük hərbi təlimi üçün əmr verdiyini və cəbhə xəttindəki hərəkətliliyin ən pik həddə çatdığını söyləyir.

**Turan**



## "Hər şey yaxşı olacaq"

Putinə peyvəndin ikinci dozası vuruldu

**Putinə COVID-19 əleyhinə peyvəndin ikinci dozası vurulub**

Rusiya Prezidenti Vladimir Putinə yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə peyvəndin ikinci dozası vurulub.

Bu barədə V. Putin özü məlumat verib.

**"Sizi məlumatlandırmaq istəyirəm ki, indi, bu zala girməmişdən qabaq peyvəndin ikinci dozasını vurdurdum. Ümid edirəm ki, hər şey yaxşı olacaq. Nəinki ümid edirəm, hətta əminəm".**

## Tarixi özü açıqladı

Paşinyan aprelin sonuncu 10 günündə istefa verəcək

**Ermənistanın baş naziri Nikol Paşinyan parlamenti buraxaraq erkən seçkilər təyin etmək üçün aprelin sonuncu 10 günündə vəzifəsindən istefa verəcəyini bildirib.**

"Report" "TASS"a istinadən xəbər verir ki, o, bunu parlamentin aprelin 14-də keçirilən iclasında açıqlayıb. "Protokol qaydaları naminə yeddinci gün baş nazir vəzifəsinə namizədliyimi irəli sürəcəyəm, qalan fraksiyalar isə öz namizədlərini açıqlamayacaq. "Mənim addımım" fraksiyası məni baş nazir seçməyəcək. İkinci dəfə də qrup namizədliyimi irəli sürəcək və yenə də seçməyəcək. Bununla da Parlament buraxılacaq, iyunun 20-də də seçkilər keçiriləcək", - N.Paşinyan izah edib.

# Siyasi-iqtisadi güc Avrasiyada toplanır

Türk Şurasının güclənməsi, beynəlxalq təşkilata çevrilməsi prosesi qlobal dəyişikliyin tərkib hissəsidir

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türk Şurası barədə vacib açıqlamalar səsləndirib. Ərdoğan deyib ki, sıraları genişlənən Türk Şurasını beynəlxalq təşkilat halına gətirmək vaxtı gəlib çatıb.**

Həmçinin o əlavə edib ki, Türk Şurasının nəzdindəki bir çox strukturlarla görülən işlər daha güclü bir strukturlaşmaya ehtiyac olduğunu ortaya qoyur. Ərdoğan diqqətə çatdırıb ki, bu ilin noyabr ayında Türkiyənin ev sahibliyi ilə keçirilən Türk Şurasının 8-ci Fövqəladə iclasında İstanbulda prestijli bir tarixi bina şuranın və gələcəkdə qurulacaq təşkilatın idarə edilməsi üçün hazırlanıb. Beləliklə, Ərdoğan Türk Şurasının funksiyasını artırmaq istəyir.

**Mövzu ilə bağlı fikirlərini "Şərq"lə bölüşən tanınmış jurnalist, siyasi-şərhçi Asif Nərimanlı vurğulayıb ki, Türk Şurasının güclənməsi, beynəlxalq təşkilata çevrilməsi prosesi qlobal dəyişikliyin tərkib hissəsidir.** O qeyd edib ki, dünyanın yeni geosiyasi reallığında



siyasi-iqtisadi güc Avrasiyada toplanır: "Çindən Britaniyaya qədər uzanan "bir kəmər, bir yol" layihəsi bu dəyişikliyin onurğasını təşkil edir. Üç dəhlizdən ibarət olan layihədə türkdilli ölkələrin yerləşdiyi orta dəhliz ön plana keçib. Qarabağ müharibəsi və müharibədən sonra Zəngəzur dəhlizinin açılması ilə bağlı addımlar da əslində bu proseslərdən qaynaqlanırdı. Azərbaycan yeni geosiyasi çağırışlarını yaxşı oxuya bildi və torpaqlarını azad etdi".

*Analitik əlavə edib ki, Zəngəzur dəhlizi bu layihədə açarlardan biridir:* "Bununla "bir kəmər, bir yol" layihəsinin orta dəhlizi coğrafi olaraq bütövləşəcək. Rusiyanın yeni reallıqlar qarşısında müharibəyə müdaxilə edə bilməməsi və Bakının istəyi ilə razılaşaraq, bu dəhlizin açılması məsələsinin daxil edildiyi üçtərəfli bəyanatları imzalamasına rəğmən, gerçəkləşməsinə manеələr yaratması da bundan qaynaqlanır. "Bir kəmər, bir yol" layihəsinin şimal dəhlizində yerləşən Rusiya orta dəhlizin perspektivlərini doğramağa çalışır. Hərçənd, dəhlizlə bağlı məsələnin üçtərəfli bəyanatlarda əksini tapdığı kimi həll ediləcəyini düşünürəm, çünki Rusiyanın qarşısında olanlar prosesin görünməyən tərəfində olan güclərdir. Yeni geosiyasi reallıqda Türk Şurası aparıcı gücə çevrilir və şuranın beynəlxalq təşkilata çevrilməsi reallığı da bununla bağlıdır. Çünki orta dəhliz dediyimiz marşrutun üzərində təkcə türkdilli ölkələr yerləşmir və digər ölkələrin də bura daxil olması üçün beynəlxalq təşkilat statusuna ehtiyac var".

**A.Nərimanlı bildirib ki, Macarıstanın şurada təmsil olunması türkdilli olmayan ölkələr üçün presedent yaradır:** "Türk Şurasının beynəlxalq təşkilata çevrilməsinin iki hədəfi var. Birincisi, orta dəhliz üzərindəki ölkələri öz çətiri altına toplamaq; ikincisi, "Rus ittifaq"larına alternativ yaratmaq. Ərdoğan çox sayda ölkənin şuraya tam, yaxud müşahidəçi qismində üzv olmaq istədiyini açıqlamışdı. Bu ölkələr arasında Ukrayna və Belarusun olduğunu deyə bilərik. Fikrimcə, Zelenski Ankarada Ərdoğanla bunu müzakirə edib, Lukaşenkonun Bakı səfərinin də əsas hədəflərindən biri budur".

**Aynurə Pənahqızı**

# ATƏT-in Minsk qrupu israrla regiona qayıtmaq istəyir

"Həmsədrlərin prinsipial məsələlərdən yox, ikinci dərəcəli mövzulardan bəhs etməsi onların ciddi təkliflərinin olmadığını göstərir"




ATƏT-in Minsk qrupunun həmsədrləri bəyanatla çıxış ediblər. Həmsədrlər 10 noyabr razılaşmasının icrası prosesini yaxından izlədiklərini vurğulayıblar. Həmçinin, tərəflərə narahatlıq doğuran məsələlərin həllinin və uzunmüddətli sülh üçün qarşılıqlı etimad atmosferinin yaradılmasının zəruriliyini xatırladıblar.

Həmsədrlər münaqişə bölgəsinin minalardan təmizlənməsinin önəmini bəyan etsələr də, növbəti dəfə "əsirlərin" geri qaytarılmasının "vacibliyini" vurğulamağı unutmayıblar. Eyni zamanda beynəlxalq humanitar təşkilatların Qarabağa giriş məhdudiyyətlərinin götürülməsini istəyiblər. Tərəfləri həmsədrlərin müşahidəsi altında ən yaxın fürsətdə yüksək səviyyəli siyasi dialoqa başlamağa çağırıblar. Həmsədrlər bölgəyə işgüzar səfərləri bərpa etməyə hazır olduqlarını da vurğulayıblar.

**Minsk qrupunun bəyanatını "Şərq"ə dəyərləndirən politoloq Azər Qasımov bildirib ki, həmsədrlərin sonuncu bəyanatında yer alan məqamlar yenidən regiona qayıtmaq üçün yetərli deyil. Analitikin sözlərinə görə, həmsədrlərin prinsipial məsələlərdən yox, ikinci dərəcəli mövzulardan bəhs etməsi onların ciddi təkliflərinin olmadığını göstərir**: "Minalanmış ərazilərin xəritəsi, o cümlədən erməni terrorçuların geri verilməsi məsələsini həmsədrlər olmadan da həll etmək mümkündür. Qarşımızda daha prinsipial məsələlər var. Məsələn, işğalçı ordunun qalıqlarının Qarabağdan çıxarılması və Zəngəzur dəhlizinin tezliklə açılması bizim üçün daha önəmlidir. Bu istiqamətlərdə real addımlar atılmalıdır".

*Siyasi şərhçi vurğulayıb ki, ATƏT-in israrla regionda yenidən aktivləşmək istəyi təşkilata yenidən inam formalaşdırmaqdır:* "Lakin ATƏT-in mandat verdiyi Minsk qrupu proseslərə doğru yerdən qoşulmur və prinsipial məsələlərdən fəaliyyətinə başlamır. Bu qrup ilk növbədə anlamalıdır ki, Azərbaycan problemin həllinin baza hissəsini özü həll edib. Yerdə qalan ən vacib məsələ problemin birdəfəlik həllinə təhlükə yaradan erməni ordusunun qalıqlarının ərazidən çıxarılmasıdır. Azərbaycan hələ ki, bu işi vasitəçilərə tapşırıb. ATƏT də Moskva ilə birgə bununla məşğul olmalıdır. Ermənilərin "əsir" kimi təqdim etdikləri terrorçuların qaytarılması məsələsi Azərbaycanın öz işidir. Erməni tərəfi minalanmış ərazilərin sxemini verdikdən sonra buna baxıla bilər".

**İsmayıl Qocayev**

## "Görünür, Fransa səfirinin ləyaqət anlayışı fərqlidir"

XİN Fransanın Ermənistandakı səfirinə cavab verdi



**Fransanın Ermənistandakı səfiri Azərbaycanda Hərbi Qənimətlər Parkının açılışı ilə bağlı şərh verərək, "müharibə tamaşa predmeti olmamalıdır" deyib. Bununla bağlı Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) KİV-in suallarını cavablandırıb.**

Nazirliyin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bildirib: "Əvvəla qeyd etmək istərdim ki, Fransanın Ermənistandakı səfirinin hər hansı bir məsələ ilə bağlı şərh bildirmədən öncə öz ölkəsinə nəzər salması, bu və ya digər məsələlərin onun ölkəsində nə şəkildə həyata keçirildiyinə diqqət yetirməsi yaxşı olardı. Tarix boyu çoxsaylı müharibələrdən keçən və bu müharibələrlə bağlı kompozisiyaları, səfirin dili ilə desək "tamaşaları" müxtəlif muzeylərdə sərgiləyən Fransa səfiri bizə düşməndən götürülən qənimətlərlə necə davranacağımızımı deyəcək?!

Fransa səfirlərinin Ermənistanın məğlubiyyətini "ləyaqətli məğlubiyyət" adlandırması da maraq doğurur. Bəlkə, Fransa səfirinə görə Ermənistanın 30 ilə yaxın davam edən təcavüzkar siyasəti də "ləyaqətli işğal" olub? Ləyaqətli davranan ölkə, birinci növbədə qonşu ölkənin ərazilərinə iddia ilə çıxış edib, bu ərazilərin bir hissəsini uzun illər işğal altında saxlamaz, bir milyon insanın hüququnu kobudcasına pozmaz, mülki şəxslər də daxil olmaqla, insanları məqsədli şəkildə qətlə yetirməz. Ləyaqətli ölkə, hərbi əməliyyatların dayandırılmasına razılıq verdikdən sonra digər ölkə ərazilərinə terrorçu qrupu göndərməz və mina xəritələrini gizlətməklə insan həyatına təhlükə törətməz. Görünür, Fransa səfirinin ləyaqət anlayışı fərqlidir.

Uzun illərdir ki, vasitəçi rolunda çıxış edən bir ölkənin rəsmi nümayəndəsinin verdiyi şərhlərə daha məsuliyyətlə yanaşması gərəkdir".

# Sarkisyan cinayətkardır



"Onun həbsində siyasi motiv yoxdur"

Ermənistanın üçüncü prezidenti Serj Sarkisyanın qardaşı oğlu Narek Sarkisyan yenidən həbs olunub. "Sputnik Ermənistan" yazır ki, bu barədə Ermənistan Baş prokurorunun müşaviri Qor Abramyan "Facebook" səhifəsində məlumat verib.

12 apreldə Kassasiya Məhkəməsi Baş Prokurorluğun apelyasiya şikayətini təmin edib və Apelyasiya Məhkəməsinin Sarkisyana qarşı qabaqlayıcı tədbir kimi girov tətbiq edilməsi barədə qərarını ləğv edib.

Xatırladaq ki, Narek Sərqsyan silah, narkotik maddə saxlamaq və dələduzluqla əlaqəli cinayət işi çərçivəsində axtarışda olub və "insan oğurluğu" maddəsi ilə ittiham edilib. 2018-ci ilin dekabrında "İnterpol" onu Praqada tutub. Burada o, Franklin Qonzalez adı altında gizlənirdi. Praqa məhkəməsi və Çexiya Ədliyyə Nazirliyi onu Ermənistana təhvil verməyə razı olub. Sarkisyan barəsindəki qanunsuz silah saxlama, dələduzluq və adam qaçırmaqla bağlı ittihamları qəbul edib.

2019-cu ilin dekabrında o, İrəvana aparılıb. Sarkisyan barəsində həbs-qətimkan tədbiri seçilib, lakin 13 noyabr 2020-ci ildə məhkəmə onu 50 min dollar girov müqabilində sərbəst buraxıb.

**Keçmiş prezidentin qardaşı oğlunun həbsi barədə "Şərq"ə danışan politoloq Qabil Hüseynlinin fikrincə, burada hansısa siyasi motiv yoxdur:** "Qərəzin olduğunu düşünmürəm. Çünki Narek Sarkisyan cinayətkardır. Əgər istintaq prosesində bunun əksi sübut olunarsa, azadlığa buraxılacaq. Lakin mən Sarkisyanın cinayətkar olduğuna və xalqın malını taladığına şübhə etmirəm".

**Kənan Novruzov**

**Ermənistanın Baş naziri Nikol Paşinyan Parlamentin iclasında Hökumətin 2020-ci ildəki fəaliyyətinə dair hesabatı zamanı çıxış edib. Paşinyan çıxış edərkən kapitulyasiya aktını imzalamasına haqq qazandırmağa çalışıb:**

**"Mövcud vəziyyəti təhlil edərək Qarabağ Prezidenti və Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargahı ilə məsləhətləşib qərara gəldim ki, müəyyən, bəli, kifayət qədər ciddi güzəştlər yolu ilə atəşkəsə nail olmalıyıq və bununla əlaqədar Təhlükəsizlik Şurasının iclasını çağırdım".**



# Paşinyan sarsaq fikirlər səsləndirdi

*Ermənistanda siyasi böhran hələ indi başlayır*

Paşinyanın sözlərinə görə, bundan sonra o, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edərək, Ermənistan tərəfinin əraziləri "5 + 2" formatı çərçivəsində geri qaytarmaqla Azərbaycana güzəştlər etməyə hazır olduğunu bildirib: "Biz Rusiya prezidenti ilə vəziyyəti ətraflı müzakirə etdik və bir-birimizi tam anladıq. Bilirsiniz ki, orada azərbaycanlı qaçqınlarla bağlı məsələ var idi. Dedim ki, bu məsələ bir şəkildə Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi prosesi ilə əlaqəlidirsə, bu mövzuda heç bir prinsipial etirazımız yoxdur".

Paşinyan qeyd edib ki, bundan sonra Rusiya prezidenti azərbaycanlı həmkarı ilə telefon danışığı aparıb. Telefon danışığının nəticəsində Bakının erməni tərəfinin Hadrutu qaytarmaq tələbini qəti şəkildə rədd etdiyi, həmçinin qaçqınların, o cümlədən Şuşaya da qayıtmasından asılı olmayaraq, Qarabağın statusu məsələsinin qaçqınlar mövzusu ilə əlaqələndirilməməli olmasında təkid etdiyi aydın olub.

**Millət vəkili Rasim Musabəyov "Şərq"ə açıqlamasında Paşinyanın sarsaq fikirlər səsləndirdiyini qeyd edib:** "Erməni mətbuatına baxsaq görərik ki, o, baş verən hadisələrdə müxtəlif adamların adını çəkir. Paşinyan bildirir ki, guya, Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyan 2018-ci ildə ona torpaqları qaytarmaq üçün tapşırıqlar verib. Hazırda Ermənistanda şiddətli siyasi mübarizə gedir və dərin böhran yaşanır. Tərəflər bir-birilərinə böhtanlar atırlar və bu, belə də davam edəcək. Qoy, bir-birilərini qırsınlar. Biz məsələni döyüş meydanında həll etmişik. İndi Paşinyan Koçaryan barədə və Koçaryan da onun haqqında nə deyəcək, bir-birilərinə necə şər atacaqlar, bunun bizim üçün heç bir əhəmiyyəti yoxdur".

"Ölkə daxilində siyasilərin bir-birinə böhtan, şər atması hələ uzun müddət davam edəcək"

**Yeganə Bayramova**

# ATƏT-in Minsk qrupuna ehtiyac olacaq

## Metyu Brayzanın açıqlaması əslində reallığa daha uyğundur



*“Biz Fransa və Amerikanın Rusiyaya qarşı mövqeyindən istifadə edib ordan müəyyən manevr imkanları qazanacağıq”*

ABŞ-ın Azərbaycandakı sabiq səfiri, ATƏT-in Minsk qrupunun keçmiş həmsədri, beynəlxalq ekspert Metyu Brayza ATƏT-in Minsk qrupu barədə danışıb. O bildirib ki, ATƏT-in Minsk qrupunun missiyası olmalıdır:

”Bu gün Prezident Əliyev də təklif etdi ki, Minsk qrupu nə edə biləcəyi ilə bağlı təkliflər verməlidir. Onlar müharibədən sonrakı mərhələyə necə kömək edə bilərlər? Azərbaycanın perspektivindən baxdıqda, ATƏT-in Minsk qrupu münaqişənin həlli yolunu tapmaq üçün formalaşmışdı, artıq münaqişə həll olunub. Belə olan halda Minsk qrupu nəsə başqa bir iş görməlidir. Minsk qrupunun görə biləcəyi çox iş var. Məsələn, Ermənistanla Azərbaycan arasında sərhədlərin demarkasiyası, noyabrın 9-da imzalanan üçtərəfli Bəyanatın bəndlərinin həyata keçirilməsi və Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, bəlkə də gələcəkdə sülhlə bağlı danışıqlara yardım etmək məsələləri. Ümumilikdə, Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin bağlanmasından söhbət gedir. Minsk qrupu bu istiqamətlərdə işləyə bilər”.

**Siyasi analitik Turab Rzayev ”Şərq”ə açıqlamasında vurğulayıb ki, Metyu Brayzanın bu açıqlaması əslində reallığa daha uyğundur.** Çünki həqiqətən də ATƏT-in aktivliyi bərpa olunmalıdır: ”Düzdür, əvvəlki şəkildə ATƏT-in artıq sülhyaratma missiyasına o dərəcədə ehtiyac yoxdur. Çünki bəzi məsələlər artıq həll olunub. Amma burada nə var? Məsələ odur ki, erməni sərhədlərinin demarkasiyası, sülhlə bağlı şərtlərin həyata keçirilməsi, gələcəkdə münaqişənin tam olaraq nizamlanması, Ermənistanla sülh müqaviləsinin imzalanması və Dağlıq Qarabağda Ermənistanla Azərbaycan əhalisinin sülh və mehribançılıq şəraitində yaşaması. Bunların hamısı təbii ki, həll olunmalıdır”.

**T.Rzayev bildirib ki, bu məsələdə ATƏT-in Minsk qrupu kömək edə bilər:** ”Çünki orda Rusiyadan başqa Amerika və Fransa var. Biz bundan necə istifadə edə bilərik? Qeyd edim ki, hazırda Rusiyanın bütün Qafqazda, Azərbaycan-Ermənistan münaqişəsində və Qarabağda nəzarəti əlinə alması Qərb ölkələrinin ürəyincə deyil. Bu həm Fransaya qıcıq yaradır, həm də Amerika buna qarşıdır. Yəni onlar tamamilə Rusiyanın söz sahibi olmasını istəmirlər. Biz əslində fikir ayrılığından istifadə edə bilərik. Çünki burda da biz müəyyən güzəştlərə gedəcəyik. Bu, erməni əhalisinin hüquqları və ya başqa məsələlərlə bağlı ola bilər. Biz Fransa və Amerikanın Rusiyaya qarşı mövqeyindən istifadə edib ordan müəyyən manevr imkanları qazanacağıq. Yəni ona görə də düşünürəm ki, Minsk qrupunun fəaliyyətini bərpa etməsi bizə lazımdır. Bu manevr imkanları nə ilə bağlıdır? Çünki bilirsiniz ki, Rusiya ordusunun əslində sülhməramlı mandatı yoxdur. Bir bəyanat imzalanıb və tam olaraq bu ordu sülhməramlı mandatına sahib deyil. Əgər gələcəkdə Azərbaycanla bir razılaşma olmasa və ya vaxtı bitdikdən 5 il sonra həmin ordu çıxarılmasını istəsə və Azərbaycan desə ki, mən bu sülhməramlı mandatı vermirəm, istəyirəm ərazini tərk eləsin, onda bizə təzyiq zamanı gərək digər ölkələr dəstək olsun, o cümlədən Fransa və Amerika. Çünki heç bir dəstək olmadan hər sözü bizə qarşı olsa, onda düşünürəm ki, Rusiyaya qarşı manevr imkanları xeyli daralmış olar”.

**Aynurə Pənahqızı**

# Sarkisyan Britaniya agentidir?

## Azərbaycan üçün Ermənistan hakimiyyətində kimin olmasının fərqi yoxdur



**Ermənistanda Qarabağdakı məğlubiyyətdən sonra başlayan siyasi, iqtisadi, hərbi və sosial təlatümlər davam edir. Ermənistanın keçmiş baş naziri Hrant Baqratyan respublikanın prezidenti Armen Sarkisyanın Britaniyanın agenti olduğunu bildirib. Bu barədə ”Türkiye Gazetesi” xəbər yayıb.**

Bildirilir ki, 53 erməni hüquqşünas ölkə prezidentini Böyük Britaniya vətəndaşlığına malik olmaqda və erməni xalqından bəzi şəxsi məlumatları gizlətməkdə ittiham edərək Ermənistanın Baş Prokurorluğuna şikayət veriblər.

**Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu ”Şərq”ə açıqlamasında sözügedən iddialara münasibət bildirib:**

”Hrant Baqratyan ciddi adam deyil. Spirtli içkilər, xüsusilə konyak onun ”beynini yuyub”. İctimai rəydə olmaq istəyir, amma bacarmır. Sarkisyanın yeganə səhvi Britaniya vətəndaşı olmasıdır. Əlbəttə, Azərbaycan üçün Ermənistan hakimiyyətində kimin olmasının fərqi yoxdur. Biz bütün hallarda torpaqlarımızı azad edəcəkdik. Gələcəkdə ölkəmizin Avrasiyada hansı böyük uğurlara imza atacağını görəcəyik”.

**Kənan**

# Müharibə həmişə mümkündür, amma...

## Amerikalı analitik: “Ukrayna məsələsində Putin geri addım atacaq”



**Ukrayna ilə Rusiya arasındakı münasibətlərin son həftələr bir az da gərginləşdiyi heç kimə sirr deyil. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın tərəfləri sülhə çağırmasına rəğmən, görünür, buna tam nail olunmayıb.**

Hər halda Rusiya işğalçılığından əl çəkmir. Ukraynanın səbr kasası isə çoxdan dolub.

**Amerikalı siyasi analitik Pol Goble tərəflər arasında ziddiyyətin gələcək inkişafını ”Şərq”ə belə izah etdi:** ”Müharibə həmişə mümkündür. Lakin fikrimcə, Putin geri addım atacaq. Rusiya dövlət başçısı Krım üçün su ehtiyatlarını ələ keçirməyə çalışacaq. Onun üçün prioritet budur”.

**Kənan**

# ABŞ yenə tarazlığı pozur

## Qarabağ qələbəsindən sonra Vaşinqton az qala Azərbaycanla danışmaq istəmir

Prezident İlham Əliyev ADA Universitetində ABŞ-ın münaqişədən sonrakı dövrdə rolu ilə bağlı sualları cavablandırıb. Ölkə başçısı qeyd edib ki, yanvardan bəri ABŞ rəhbərliyindən heç bir mesaj alınmayıb: "Bu gün artıq aprel ayıdır. Heç bir mesaj yoxdur".

Azərbaycan Prezidenti deyib ki, ABŞ dövlət katibi Entoni Blinken bir qədər öncə Ermənistanın Baş naziri Nikol Paşinyanla telefon əlaqəsi saxlayıb: ”Nə barədə danışdıqlarını bilmirəm, amma yenə də tarazlıq pozulub.

Onun zəngini gözlədiyimizi demirəm, ancaq o, Minsk qrupunun həmsədr ölkəsini təmsil edir. Ən azından özünün taraz yanaşmasını göstərməlidir”.

Prezident İlham Əliyev vurğulayıb ki, bu günə qədər ABŞ administrasiyasından yeganə mesaj ABŞ Prezidenti Co Baydenin Novruz bayramı münasibətilə təbriki olub: ”Ancaq mahiyyət etibarilə bu, yeganə mesaj idi”.

**Humanitar Tədqiqatlar Cəmiyyətinin sədri, konfliktoloq Əvəz Həsənov Amerikanın bölgədəki durumla əlaqədar siyasətini ”Şərq”ə şərh edib.** Konfliktoloq vurğulayıb ki, Baydenin prezident seçkilərindən sonra xarici siyasətə diqqət yetirməməsi gözlənilən addım idi: ”Çünki Amerikada başa düşülürdü ki, Bayden Administrasiyası Trampdan sonra ABŞ-ın daxilində müəyyən düzəliş və islahatların aparılmasına maraqlı olacaq, bundan sonra xarici siyasətə diqqət yetirəcək. Qarabağdakı 44 günlük müharibədən sonra Amerikanın bizə qarşı soyumasını hiss etmək olar. Çünki Azərbaycan həmsədrlərin fikirlərini nəzərə almayıb, onları oyundan kənar vəziyyətə salaraq münaqişəni özü həll edib. Bununla da Azərbaycan həmsədrlərin mövqeyinin ciddi tənqidçisinə çevrildi. Rusiyanın aparıcı rola malik olması və rus sülhməramlılarının bölgəyə yerləşdirilməsi Amerika ilə münasibətlərimizdə soyuqluğa



gətirib çıxarıb. ABŞ Qarabağ münaqişəsinin həllində hansı mövqeyini qoruyub saxlamaq fikrində idisə, müharibə nəticəsindən asılı olmayaraq, həmsədr dövlət kimi intensiv olaraq Azərbaycan-Ermənistanla danışıqlar aparmalı idi. Çünki ABŞ yalnız həmsədr ölkə deyil, həm də güc sahibidir və regionda güclü təsirə malik olan bir ölkədir. Azərbaycanda da Amerikanın kifayət qədər təsiri və gözləntiləri var. Bu baxımdan ABŞ-ın belə ”şıltaqlığı” və bizlə danışmamaq cəhdi o qədər də normal qarşılanmır”.

**Ə.Həsənov söyləyib ki, Amerika seçkilərlə bağlı prosedurları başa vurduqdan və beynəlxalq siyasətə diqqət yetirməyə qayıtdıqdan sonra Azərbaycanla münasibətlərin çözülməsinə fikir verməli idi:** ”Ölkəmiz müharibə ilə bağlı istədiyi nəticəni əldə edib. Rusiya və Türkiyə aparıcı mövqeyə gəlib çatıb. Burada Amerikanın mövqeyinin zəiflədilməsindən söhbət getmir. Amma ABŞ-ın söz sahibi olmaq şansını itirməsi təəssüfləndiricidir. Çünki ABŞ və Avropa Birliyi (AB) Azərbaycan üçün önəmli bir partnyordur. Bu, uzun illərdir ki, Azərbaycanın münaqişə ilə bağlı atdığı bütün addımlarda özünü göstərib. Amerika və AB-yə prioritet kimi diqqət yetirmələri hər zaman Azərbaycanın siyasətində qeyd olunub. Ona görə də Amerikanın bu çılğınlığı onun bölgədə səsinin eşidilməsi baxımından yaxşı addım deyil. İnanıram ki, ABŞ nə zamansa səhvini düzəldəcək və Azərbaycanla bağlı münasibətlərin daha horizontal olması üçün siyasətində korrektələr edəcək”.

**Yeganə Bayramova**

# Donbassda gərginlik...



## Münaqişə artıq Ukraynanın problemi deyil

ABŞ Dövlət katibi Entoni Blinken Ukraynanın Xarici işlər naziri Dmitri Kuleba ilə görüşüb. Bu barədə D.Kuleba "Twitter"də bildirib: "Rusiyanın müharibə ritorikasını artırdığı və hərbçilərini sərhəddə cəmləşdirdiyi bir zamanda Brüsseldə amerikalı həmkarım ilə görüşmək çox yaxşı oldu".

## ABŞ və Rusiyanın bu mövzuda baş-başa gəlmə təhlükəsi var

XİN başçısı qeyd edib ki, hər hansı bir yeni hərbi macəranın bədəli çox yüksək olacaq.

"Moskvanı gərginləşmə yaratmaqdan çəkindirməliyik".

**Məlum görüş barədə "Şərq"ə danışan politoloq Məhəmməd Əsədullazadə bildirib ki, Donbassda artan gərginlik təkcə Ukraynanın problemi deyil.** Artıq məsələ geosiyasi toqquşma müstəvisinə gəlib çıxır. Onun sözlərinə görə, xüsusilə ABŞ və Rusiyanın bu mövzuda baş-başa gəlmə təhlükəsi var: "Rusiya Ukraynanın Donbassı nəzarətinə alması və separatçılara qarşı hərbi əməliyyatları özünə qarşı təhdid hesab edir. Çünki Donbassın Rusiya nəzarətindən çıxması beynəlxalq müstəvidə Rusiyanın ABŞ qarşısında zəifləməsinə gətirib çıxara bilər. Məsələyə bu kontekstdən yanaşdıqda ABŞ və Rusiya gərginliyini təkcə iki dövlətin gərginliyi kimi xarakterizə etmək olar.

Əlbəttə, Ukraynanın separatçılara qarşı mübarizə aparıb ərazi bütövlüyünü təmin etməsi beynəlxalq hüquqa əsaslanır. Rusiyanın bu prosesdə Ukraynaya təzyiqi və rəsmi Kiyev sərhədlərinə hərbi bazalarını gətirməsi birbaşa Ukraynanın təhlükəsizliyini təhdid edir".

**M.Əsədullazadə qeyd edib ki, ABŞ və NATO Ukraynanı dəstəkləyir:** "Amerikanın hərbi qüvvələrini Ukrayna ətrafına cəmləşdirməsi bir növ Rusiyanın Ukraynaya qarşı hərbi müdaxiləsinin qarşısını almağa hesablanıb.

Ukrayna XİN başçısının ABŞ dövlət katibi ilə görüşü Donbass ətrafında Rusiyanın Ukrayna sərhədlərinə yığdığı hərbi qüvvələrin müzakirəsidir. Artıq ABŞ Ukraynaya sarsılmaz və qətiyyətli şəkildə yardım göstərəcəyini dedi. Təbii ki, bu da Moskavanı narahat edir.

Həqiqətən də Ukrayna Donbassda separatçılara qarşı hərbi əməliyyatlara başlasa və Rusiya prosesə müdaxilə etməsə, Amerika və NATO Kiyevə tam dəstək olacaq.

Bu görüş də Amerika və Ukrayna arasında müəyyən məsələlərin koordinasiyası, məsləhətləşmələr və Moskvaya mesaj verməkdir. Yəni Amerika və Ukrayna bu məsələdə yekdildir".

**Yeganə Bayramova**

## Hərbi qənimətlər üçün bu xalqın övladları qan töküb

### İndi Hərbi Qənimətlər Parkının pullu edilməsi yaxşı hal deyil



**Xəbər verdiyimiz kimi, aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışı olub.**

Çox qısa zamanda görülən genişmiqyaslı işlər artıq yekunlaşıb: açıq səma altında nadir park salınıb.

Bu gündən isə sözügedən park vətəndaşların üzünə açıqdır. Sosial mediada parka girişin pullu olub-olmaması ilə bağlı fərqli mülahizələr irəli sürülür. Yayılan iddialara görə, vətəndaşlar 2 AZN, bələdçiylə 20 AZN, xarici vətəndaşlar 10 AZN, 6 yaşına qədər uşaqlar isə parkı pulsuz ziyarət edə bilərlər. Qeyd edək ki, sosial şəbəkələrdə, toplanan məbləğin "YAŞAT" Fonduna köçürülməsi ilə bağlı fikirlər də səslənir.

*Parka girişin pullu olması nə dərəcədə doğrudur?*

**Mövzu ilə bağlı "Şərq"ə danışan qazi, hərbi-jurnalist Rey Kərimoğlu parkın yaradılmasını dəyərləndirib. Onun sözlərinə görə, girişin ödənişsiz olması daha məqsədəuyğundur:** "Parkın yaranması çox gözəldi! Alqışlayıram! Qaldı ödənişlə girişə, pulsuz olsa yaxşıdır! O hərbi qənimətlər üçün xalqın övladları qan töküb, hazırda oranı pullu eləmək doğru deyil. Ola bilsin ki, gələcəkdə ödənişli olsun, amma baha olmamalıdır. Adamın biri 50 qəpik və ya bir az, çox. 2 manat çox bahadır. Pullu olacağı təqdirdə, şəhid ailələri, qazilər, veteranlar, hərbçilər, əlillər üçün mütləq pulsuz olmalıdır".

**Aygün**



## Kreml ifşa olundu

### "Rəsmi Bakı "İsgəndər" olayını ictimailəşdirdi"

**Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov Şuşada qalıqları tapılan "İsgəndər-M" raketlərinə dair açıqlama verib. O, mövzunun Rusiya və Azərbaycan hərbçiləri arasında sıx dialoq şəraitində müzakirə olunduğunu deyib.**

"Hərbi xətt boyunca yaxın bir dialoq aparılır, bu müddət ərzində bütün müvafiq məsələlər müzakirə olunur",- deyə Peskov qeyd edib.

Əslində məsələnin nə yerdə olduğu hər kəsə aydındır. Necə deyərlər, görünən dağa nə bələdçi?

**AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli də düşünür ki, həqiqətən, "bələdçiyə" filan ehtiyac yoxdur. O, bu barədə fikirlərini "Şərq"lə bölüşdü:**

"Deyilənə görə, araşdırma aparılır. Fikrimcə, bir azdan həmin raketlərin sınaq xarakterli olduğunu və hökumətdən xəbərsiz satıldığını deyəcəklər. Sonra isə "satanları" cəzalandıracaqlar. Beləliklə, məsələni bağlamağa çalışacaqlar. Əslində Rusiya buna məcburdur. Çünki Kreml ifşa olundu və rəsmi Bakı şimal qonşumuzun "qəbahətini" ictimailəşdirdi. Hər halda Moskva Azərbaycanla münasibətləri pisləşdirmək istəməz".

**Kənan**

# Ermənistanın canına Zəngəzur qorxusu düşüb

## Ona görə sərhədlərində Rusiyanın hərbi bazasını qurmağa çalışır



**Rusiya və Ermənistan Ermənistanda 102-ci Rusiya hərbi bazasının imkanlarının genişləndirilməsi məsələsini müzakirə edir.**

Bunu Ermənistanın Baş naziri Nikol Paşinyan parlamentin sonuncu iclasında deyib.

O bildirib ki, Sünikdə dayaq məntəqəsi yaradıla bilər.

Baş nazir Rusiya ilə hərbi ittifaqın ölkəsinin təhlükəsizliyində vacib əhəmiyyəti barədə də danışıb: "Ermənistanın xarici təhlükəsizliyinin dayağı erməni-rus hərbi ittifaqı və onu möhkəmləndirən onlarla beynəlxalq hərbi və strateji müqavilələr və müttəfiqlərlə qarşılıqlı öhdəliklərdir".

Onun sözlərinə görə, təhlükəsizliyin təmin edilməsi baxımından erməni-rus döyüş qruplarının fəaliyyəti və vahid Hava Hücumundan Müdafiə sistemi mühüm praktiki əhəmiyyət kəsb edir.

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə açıqlamasında Ermənistanın Zəngəzur məsələsində qorxduğu üçün bu addımı atdığını dedi:** "Ermənistanın Azərbaycanla arasında olan sərhəddə, xüsusilə də Qubadlı və Zəngəzur istiqamətində Rusiyanın əli ilə hərbi bazanı gücləndirməsi regionda qarışıqlıq yaratmağa xidmət edir. Hesab edirəm ki, Ermənistanın bu addımı anlaşılmazdır. Bu, Azərbaycanla gələcək perspektivdə yaradılacaq imkanlara bir zərbədir.

Qeyd edim ki, Azərbaycan öz sərhədləri daxilində yeni hərbi hissələr qurur. Amma Ermənistan öz sərhədləri daxilində digər dövlətlərin hərbi bazasını yaratmağa meyl edir.

Ermənistan Rusiyanın asılılığındadır. Eləcə də onların qorxduğu əsas məsələ Zəngəzur mövzusudur. Çünki Zəngəzur Azərbaycanın əzəli torpağıdır. Hesab edirəm ki, Ermənistanın bu yöndə atdığı addımlar qorxularından irəli gəlir.

Zəngəzur-Sünik istiqamətində yeni hərbi bazanın yaradılması Azərbaycanla Rusiya arasında müəyyən suallar doğuracaq.

Əlbəttə ki, hərbi bazanın məhz Sünik istiqamətində yaradılması həm də Rusiyanın planıdır.

Onlar Azərbaycanın Naxçıvan, eləcə də Türkiyə ilə quru əlaqəsini təmin edəcək Mehri dəhlizinin yaxınlığında hərbi baza qurmaqla prosesləri müəyyən dərəcədə öz nəzarətlərində saxlamağa çalışırlar".

**Ağarza Elçinoğlu**

# Boş qalmış dəbilqələrin sayı milyonlarla olmalıydı

## *Şərəfsiz erməni quldurlarına bu cür münasibət çox azdır*

**Prezident İlham Əliyevin iştirakı ilə açılışı həyata keçirilən Hərbi Qənimətlər Parkı Azərbaycan Ordusunun gücünü, qüdrətini dünyaya nümayiş etdirən mühüm mesaj və Ermənistana növbəti ”dəmir yumruq” xəbərdarlığı idi.**



“Qənimətlər meydançası erməni xalqına “yanlış ideologiya və siyasətə” sahib olduğunu sübut etmək məqsədi daşıyır”

Dövlət başçısı bir müddət əvvəl düşməndən qənimət götürülmüş və məhv edilmiş texnikanın nümayişi üçün planlarının olduğunu demişdi. Ötən il dekabrın 10-da keçirilən Zəfər paradında düşməndən qənimət kimi götürülən texnikaların bir qismi nümayiş etdirildi. Daha sonra ölkə rəhbəri Hərbi Qənimətlər Parkının salınması haqqında təşəbbüs irəli sürdü və qısa zamanda görülən genişmiqyaslı işlər nəticəsində bu vəd reallaşdı. Açıq səma altında nadir park salındı və ilk ziyarətçisini - müzəffər Ali Baş Komandanı qəbul etdi. 44 gün ərzində mükəmməl hərbi strategiya və taktika nəticəsində düşmənin 30 il ərzində möhkəmləndirdiyi müdafiə xətləri darmadağın edildi. Düşmən hərbi resurslarını, canlı qüvvələrini, mövqelərini qoyub qaçdı. Ermənistan silahlı qüvvələrinin qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlar qənimət kimi götürüldü. Zəfər paradının ən yaddaqalan məqamlarından biri rəşadətli ordumuzun işğaldan azad olunan torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanan lövhə idi. Hazırda həmin lövhə yeni fəaliyyətə başlayan Hərbi Qənimətlər Parkında da öz əksini tapıb. Hazırda Bakıda açılmış Hərbi Qənimətlər Parkı dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Parkda İkinci Qarabağ müharibəsindən qalma, erməni əsgərlərinə məxsus dəbilqə və çəkmələrin, eləcə də erməni hərbçilərinin manikenlərinin nümayişi Ermənistanın narazılığına səbəb olub. Ermənistan XİN bəyanat yararaq, bunu ”ermənilərin təhqir edilməsi, ləyaqətlərinin tapdalanması” kimi qiymətləndirib. Yerevan bunu “sülhə təhlükə” kimi gördüklərini və guya, ermənilərin Azərbaycan hakimiyyəti altında “təhlükəsiz yaşaya bilməyəcəyini” vurğulayıblar.

Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistan tərəfinin sərsəm ittihamını cavabsız qoymayıb. XİN-dən bildirilib ki, Ermənistan XİN-in isteriyası bu ölkənin Azərbaycana qarşı qarayaxma cəhdlərinin heç bir hüdudunun olmadığını göstərir. Vurğulanıb ki, dünya təcrübəsində də geniş şəkildə qəbul olunduğu kimi, bu şanlı Zəfərin paradlar, parklar, muzeylər və digər vasitələrlə əbədi yaşadılması bizim mənəvi haqqımızdır: “Parkda müharibə iştirakçısı olan erməni hərbçilərinin manikenlərinin sərgilənməsinə gəldikdə isə dünyanın bir çox ölkələrində hərbi muzeylərdə manikenlərin sərgilənməsi təcrübəsi mövcuddur. Bu Parkın və burada sərgilənən kompozisiyaların verdiyi ismarıc birmənalıdır. Dövlətə qarşı həyata keçirilən təcavüz siyasəti və qanunsuz işğal üzərində çalınan böyük Qələbə beynəlxalq hüququn təntənəsidir. Ermənistan XİN-in talançılıq və insana nifrət iddialarına gəldikdə isə azad edilmiş ərazilərimizdə Ermənistan tərəfindən dövlət səviyyəsində törədilən məqsədyönlü dağıntı və talan siyasətinin nəticələri bu gün bütün dünyanın gözləri qarşısındadır. Faşist cəlladı Qaregin Njdeyə Yerevanda heykəl ucaldan, birinci Qarabağ müharibəsi zamanı əli azərbaycanlıların qanına bulaşan beynəlxalq terrorçu Monte Melkonyanı qəhrəmanlaşdıran, terrorçu Soqomon Teyliryana ayaqları altında kəsilmiş insan başı ilə abidə ucaldan bir ölkənin insana nifrətdən danışmağa heç bir haqqı yoxdur”.

**Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc da qeyd edib ki, qənimətlər meydançası erməni xalqına “yanlış ideologiya və siyasətə” sahib olduğunu sübut etmək məqsədi daşıyır:** ”Həmin tanklar, toplar Azərbaycan insanlarını məhv edəndə, qəddarlığın, qeyri-insani hərəkətlərin əleyhdarları niyə buna etiraz etməyiblər?”. Millət vəkilinə görə, dəbilqələr və digər detalların nümayişi etnik nifrəti o vaxt alovlandırmış sayıla bilərdi ki, Azərbaycan Qarabağda başqa millətlərin, o cümlədən ermənilərin mövcudluğunu tanımasın.

**Tarixçi-alim Elmar Həsənli də “Şərq”ə açıqlamasında bildirib ki, Qənimətlər Parkı ilə bağlı fərqli fikirlərə sosial şəbəkədə də rast gəlinir:** “Feysbuka baxıram, əksəriyyət ermənilərin boş qalmış dəbilqələrini sevinclə paylaşır, digərləri isə onların bu halına ”acıyır”, hətta bunu “faşistlik” adlandırırlar. Onlara sözüm budur ki, XX əsrdə ”ağaları”nın təlimatı ilə Azərbaycan xalqına qarşı soyqırım törədən şərəfsiz erməni quldurlarına bu cür münasibət çox azdır. Boş qalmış dəbilqələrin sayı milyonlarla olmalıydı. Təəssüf ki, Rusiya imkan vermədi. Ermənistanın terroru dövlət səviyyəsində dəstəklədiyi tarixdən məlumdur. Cümhuriyyət liderlərinin çoxunu ermənilərə məxsus terror təşkilatları qətlə yetiriblər. “Qnçak” və “Daşnaksütyun” kimi terror təşkilatları məhz erməni quldurlarına məxsusdur. Xocalıda minlərlə insanımızı körpə, qoca, qadın demədən amansız qətlə yetirən, dərisini soyan erməni terror təşkilatlarına məxsus əsgər və zabitlər olub. Bizim igid əsgərlərimiz isə onlardan qisas alıb. Bu qələbəni bizə bəxş edən Azərbaycanın igid oğullarının alnından və vuran əllərindən öpürəm”.

**İsmayıl Qocayev**



# “Bizə yaraşan iş deyil”

## Şuşaya, Kəlbəcərə, Ağdama giriş pullu ola bilməz

**Sabiq deputat Etibar Hüseynov maraqlı təkliflə çıxış edib. O qeyd edib ki, gələcəkdə istirahətə gələnlər üçün Şuşa və Kəlbəcərə, o cümlədən Ağdama giriş pullu olsun:** “Simvolik 50 qəpik, 1 manat və ya kim nə qədər istəsə. Niyə də yox? Bu gün ölkə boyu az qala bütün şəlalə, göl və s. pullu edilib. Ki, bura filankəs pul qoyub, əziyyət çəkib. İndi istirahət üçün getdiyin həmin məkanlar üçün insanlarımız can qoyub, qan töküb. Onların özlərinə və ya ailələrinə azacıq yardım payımızı vermək niyə də olmasın? Amma yenə də ”YAŞAT” Fonduna yığılmaq şərtilə”. Sabiq deputat bildirib ki, bu addım hamının ürəyincə olar: ”Hər kəsə istirahətdən əlavə ruhən və mənən bir rahatlıq da gətirər”.

**Milli Məclisin deputatı Elman Məmmədov təklifə münasibət bildirib. O, ”Şərq”ə açıqlamasında bildirib ki, sabiq deputatın bu təklifi təbii ki, xoşməramlıdır.** Ancaq Azərbaycanın hər hansı bir bölgəsinə girişi-çıxışı pullu etməyi düzgün hesab etmir: ”Hörmətli sabiq deputat yoldaşımız Etibar Hüseynov təbii ki, bunu xoşməramla və xoş fikirlə deyib. Yəni müəyyən vəsait toplanar və bu vəsait də xeyirə xərclənər. Yəni şəhid ailələrimizə, qazilərimizə, əlillərimizə. Ancaq Azərbaycanımızın hər hansı bir şəhərinə, kəndinə, qəsəbəsinə şlaqbaumlar qoymaq, keçid məntəqəsinə girişi-çıxışı pullu eləmək fikrimcə, bizə yaraşan iş deyil və qəbulolunmazdır”.

**Aynurə**

# “Rus çıxmırsa, türk də mütləq burda olacaq”

## Hərbi ekspert: “Laçın və Kəlbəcərdə Türkiyə hərbi bazası yaradılacaq”

**“Azərbaycanda Türkiyənin hərbi bazası arzuolunandır, lakin bunun üçün tələb olunan şərait yaranmayıb”.**

*Bu sözləri hərbi ekspert Ədalət Verdiyev deyib.*

O, ”Şərq”ə açıqlamasında sözügedən təşəbbüsün hansı halda labüd olacağını dedi: ”Qanunvericilik bazası da ölkəmizdə xarici ölkələrin hərbi iştirakını məhdudlaşdırır. Lakin Rusiyanın 4 ildən sonra Qarabağdan şələ-şüləsini yığışdırmadığı halda, Laçın və Kəlbəcərdə Türkiyə hərbi bazasının yaradılması zərurətə çevriləcək. Odur ki, şərtlərimizi indidən formalaşdırmalıyıq: rus çıxmırsa, türk də burda mütləq olacaq. Qoy, Putin və Şoyqu işlərini indidən planlaşdırsınlar”.

**Kənan**

# Türkiyənin yeni raketi hədəfləri dəqiq vurdu

## İsrail, ABŞ və İngiltərədə hələ bu silahların tədqiqatları aparılır

Türkiyə yeni "hava-hava" raketini uğurla sınaqdan keçirib.

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan öz tvitter səhifəsində yazıb: "Türkiyə "hava-hava" raket texnologiyasına sahib azsaylı ölkələrdən biri olmağı bacardı. Gənc texnoloqlarımız və mühəndislərimizin "Göktuğ" layihəsi çərçivəsində inkişaf etdirdikləri "hava-hava" raketimiz "Bozdoğan" ilk atəşdə hədəfi tam vurdu".

**Türkiyənin daha bir uğuru barədə ”Şərq”ə danışan hərbi ekspert Ədalət Verdiyev bildirib ki, bu silahlar haqqında İsrail, Amerika və İngiltərədə tədqiqatlar aparılır, Türkiyə isə bu sınaqdan uğurla keçdi:** ”Bu, yeni nəsil raketlərdir. Hava-hava raketləri havadan gələn təhlükəni elə havadaca vurmaq üçün nəzərdə tutulub. Bu silahlar 25 km-dən hədəfi nişan alır. Atəş açıldıqdan sonra hədəf izlənilmir, raket özü həmin hədəfi vurur.



Bu raketdən Türkiyədə olan bütün ”F” qırıcıları istifadə edə bilər. Türkiyənin hərbi sənayesi bu istiqamətdə 2013-cü ildən bəri işlər aparır.

Müasir dövr müharibələrində hava məkanına sahib olmaq əsas tələblərdəndir. Biz bunu 44 günlük müharibədə də gördük.

Yeni hava-hava raketlərinin Türkiyə hava məkanını qorumaqda əvəzsiz xidmətləri olacaq.

Bu raketin istehsalı və uğurla sınaqdan çıxması onu göstərir ki, Türkiyədə hərbi sənaye çox güclü inkişaf edib.

Onu da qeyd edim ki, Türkiyə ilə Azərbaycan hərbi sənayesi arasında yeni layihələr yaradılıb. Bu istiqamətdə işlər aparılır”.

**Ağarza Elçinoğlu**

# Minsk qrupu söz haqqını çoxdan itirib

## "Yenidən meydana çıxıb təkliflər səsləndirmək arxadan atılan daş effekti yaradır"




ATƏT Minsk qrupunun həmsədrləri (Rusiya Federasiyasından İqor Popov, Fransadan Stefan Viskonti və ABŞ-dan Endrü Şofer) bəyanatla çıxış ediblər. Həmsədrlər atəşkəs rejiminin qorunub saxlanılmasını məmnunluqla qeyd edirlər və tərəflər arasında 10 noyabr 2020-ci il tarixində əldə edilən razılaşmanın icrasını yaxından izləyirlər.

Həmsədrlər tərəflərə qalan problemli məsələlərin həlli və davamlı sülhə kömək edən qarşılıqlı etimad mühitinin yaradılması üçün əlavə səylərin göstərilməli olduğunu xatırladıblar.

Bunlara, xüsusilə: münaqişə bölgələrinin effektiv şəkildə minalardan təmizlənməsi üçün lazım olan bütün məlumatların mübadiləsi ilə bağlı məsələlər, dini və mədəni irsin saxlanılması və qorunması və münaqişədən təsirlənən icmalar arasında birbaşa təmasların qurulması, həmçinin insanlar arasında etimadın möhkəmləndirilməsi üçün digər tədbirlər daxildir.

**Minsk qrupunun yeni bəyanatını "Şərq"ə şərh edən millət vəkili Sevil Mikayılova bildirib ki, Azərbaycan öz ərazi bütövlüyünü hərbi-siyasi yolla bərpa etdikdən sonra artıq Dağlıq Qarabağ münaqişəsi tarixə çevrilib.** ATƏT-in canfəşanlıq göstərərək, yenidən fəallaşmaq istəyi müəyyən mənada sual yaradır: "30 il müddətində effektiv iş ortaya qoya bilməyən ATƏT-in Minsk qrupu bundan sonrakı fəaliyyəti ilə hansı obraz yaratmaq fikrindədir?

44 günlük müharibə dövründə ATƏT-in bəzi həmsədr ölkələrinin nümayiş etdirdikləri qərəz ümumilikdə bu təşkilata etibarı sarsıdıb, təşkilatın nüfüzunu heçə endirib. Öz fəaliyyəti dövründə daha çox "tur-səfərləri" ilə seyrçi mövqeyində dayanan ATƏT MQ artıq söz demək haqqını çoxdan itirib.

Münaqişə həll olunandan sonra yenidən meydana çıxıb təkliflər səsləndirmək arxadan atılan daş effekti yaradır. Postmüharibə dövründə ATƏT-in bölgədə fəallıq göstərmək istəyi səmərəsizdir, çünki əvvəlki fəaliyyəti bu niyyətin heç bir faydasının olmayacağını söyləməyə əsas verir".

*Deputat qeyd edib ki, ATƏT-in həmsədrləri boş bəyanatları bir kənara qoyub, nəticəyə yönəlik addımlar atsalar, daha yaxşı olar:* "Özlərini hələ də faydalı hesab edirlərsə, minalanmış ərazilərlə bağlı dəqiq məlumatların Ermənistandan alınmasını təmin etsinlər.

Bundan əlavə, bu vaxta qədər dini və mədəni irsin qorunub saxlanması üçün heç bir iş görməyən ATƏT MQ-nin bundan sonra bu yöndə iş aparması gözəl səslənsə də, səmimiyyəti şübhə yaradır.

Öz missiyasının genişləndirilməsi ilə bağlı istəkləri isə real iş görmək yox, sadəcə, mənasız danışıqları uzatmaq niyyətindən doğur".

**Yeganə Bayramova**



# İnsanlar çox əziyyət çəkir

## Heç olmasa şənbə günləri ictimai nəqliyyatın işi bərpa olunmalıdır

**"Son həftələr əksər ölkələrdə virusa yoluxanların sayında artımlar müşahidə olunsa da, dövlətlərin pandemiya ilə mübarizə tədbirləri bir-birindən fərqlənir".**

Bu barədə millət vəkili Vüqar Bayramov deyib. Deputat bildirib ki, ölkəmizdə pandemiyaya qarşı mübarizə tədbirləri çərçivəsində tətbiq edilən qadağalardan biri həftəsonları ictimai nəqliyyatın işləməməsidir: "Hələlik heç bir ölkədə və eləcə də elmi araşdırmalarda həftə sonları ictimai nəqliyyatın işləməməsinin yoluxma sayına təsirlərini ölçə bilən konkret metodlar yoxdur. Bununla belə, xüsusən də şənbə günləri çalışanların bir qismi üçün həftə sonları ictimai nəqliyyatın işləməməsi xüsusi çətinliklər yaradır. Bu baxımdan, həftə sonları ictimai nəqliyyatın fəaliyyətinin bərpası məqsədəuyğun olardı. Bir sıra inkişaf etməkdə olan ölkələrin praktikasını nəzərə alsaq, pandemiya dövründə qeyri-iş günlərində ictimai nəqliyyatın fəaliyyəti dayandırılmır, sadəcə müddəti qısa olur. Məsələn, həftə sonları ictimai nəqliyyat gecə yarısınadək deyil, səhər saatlarından axşam 20:00-dək işləyə bilər. Xüsusən, günün aktiv saatlarında nəqliyyatın işinin bərpası daha məqsədəuyğun olardı. Bu, həftə sonları müşahidə olunan nəqliyyat probleminin həllinə gətirib çıxarar".

**İsmayıl**



# Azərbaycanda Belarus məhsulları görə biləcəyik

## "Belarus MDB məkanında Azərbaycan üçün ikinci ticarət partnyorudur"

**Aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun iştirakı ilə Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi olub.**

"Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında baytarlıq sahəsində anlaşma və əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın Kənd təsərrüfatı naziri İnam Kərimov və Belarusun Kənd təsərrüfatı və ərzaq naziri İvan İvanoviç Krupko imzalayıblar.

**Politoloq İlqar Vəlizadə sözügedən sənəd barədə "Şərq"ə danışıb:** "Regionda yeni geosiyasi reallıq yaranıb. Bu, MDB ölkələrinə də təsir edir. Həmin ölkələrin hər birinin öz maraqları var. Onlar daim bu maraqları müdafiə etməyə hazır olduqlarını göstərməlidirlər.

Eyni ilə Azərbaycan kimi. İkinci bir tərəfdən, məlum səfəri MDB məkanında müstəqil siyasət yeridən ölkələr arasında münasibətlərin yenidən qurulması kimi qiymətləndirirəm. Nəzərə almaq lazımdır ki, Belarus MDB məkanında Azərbaycan üçün ikinci ticarət partnyorudur.

Ona görə də çoxşaxəli əməkdaşlıqdan söhbət gedir. Belarus öz məhsullarını regiona ixrac etmək istəyir. Belarus məhsullarını Azərbaycanda görə biləcəyik".

**Kənan**

# Bakıda qadın körpəsini küçəyə atıb, qaçmaq istəyib

## *Onlar sığınacağa çatanda uşaq ac idi*

**Bakıda gənc qadın südəmər körpəsindən imtina edib. O, uşağı küçənin ortasında tərk edib getməyə çalışıb. "Təmiz Dünya" İctimai birliyinin rəhbəri Mehriban Zeynalovanın Sputnik Azərbaycan-a verdiyi məlumata görə, hadisə ötən gün Bakıətrafı qəsəbələrdən birində baş verib.**



*Etik səbəblərdən adı açıqlanmayan qadın üç aylıq oğlan uşağından imtina edərkən ağlayırmış. Hadisə şahidləri taksi çağıraraq qadını zorakılıq qurbanlarının yerləşdirildiyi sığınacağa göndəriblər. M.Zeynalova ilə söhbətində qadın bildirib ki, 29 yaşı var:* "Mənə zəng edib dedilər ki, küçədə bir qadın ağlayır. Əyni də nazik imiş. Jaket veriblər, uşağı da geyindiriblər, yemək alıblar. Sonra da taksiyə mindirib bizə göndəriblər. Onlar sığınacağa çatanda uşaq ac idi. Qadın dedi ki, körpəsi də, özü də iki gündür, heç nə yeməyiblər. Sonra isə dedi ki, uşağı qoyub getmək istəyir. Məndə elə təəssürat yarandı ki, o, uşağı haraya gəldi ata bilər", - Zeynalova deyir.

Hüquq müdafiəçisi polisə müraciət edib. Qadının hərəkətləri onun durumunun normal olmadığına əsas verib: nə özünün, nə qohumlarının, nə də uşağın atasının ünvanını deyə bilib, özünü qəribə aparıb. Bütün gecə qadınla psixoloq söhbət edib.

Mütəxəssis müəyyənləşdirib ki, qadın körpəsinə baxmaq durumunda deyil. Tezliklə polis uşağın atasını da tapıb. Məlum olub ki, qadınla kişi qeyri-rəsmi nikahdadırlar. Ancaq kişi də uşaqdan imtina edib.

Hüquq-mühafizə işçilərindən sonra dəvət olunan sosial xidmət əməkdaşları qadının körpəsindən imtina etməsi barədə ərizəsini qəbul ediblər.

Bütün bu hadisələrdən sonra qadın birlikdə yaşadığı kişinin yanına qayıtmaq istəməyib. Körpəni isə sabahı gün paytaxtdakı uşaq evlərindən birinə yerləşdiriblər.



# Bakıda sərnişin avtobusu qəzaya uğrayıb, xəsarət alan var

**Dünən Bakının Nərimanov rayonunda yol-nəqliyyatı hadisəsi baş verib.**

APA xəbər verir ki, hadisə Koroğlu Rəhimov küçəsində qeydə alınıb.

"Bakubus" MMC-yə məxsus 13 nömrəli marşut avtobusu dayanacaqda dayanıb. Bu zaman yüksək sürətlə hərəkətdə olan "Hyundai" markalı avtomobil sərnişin avtobusuna çırpılıb. Qəza nəticəsində minik avtomobilinin sürücüsü ağır bədən xəsarəti alıb.

Hadisə yerinə Nərimanov Rayon Polis İdarəsinin əməkdaşları cəlb edilib.

# Ucarda iki nəfər bıçaqlanıb, qadın ölüb

**Ucarda 33 yaşlı qadını bıçaqla öldürüblər.**

Dünən günorta saatlarında Ucar Mərkəzi Rayon Xəstəxanasına bıçaq xəsarətləri ilə rayon sakinləri - 1985-ci il təvəllüdlü Kərimova Validə Məzahir qızı və 1988-ci il təvəllüdlü Məmmədov Qasım Fazil oğlu gətiriliblər. Həkimlərin müdaxiləsinə baxmayaraq, Validə Kərimova xəstəxanada ölüb. Hadisənin hələlik hansı şəraitdə baş verməsi dəqiq məlum deyil.

# QMİ internet televiziya açdı



## Tanınmış jurnalist, dini yazar təşəbbüsü dəstəklədi

*“Bu sahəni boş buraxmaq, internet üzərindən fəaliyyət göstərən marginal, bölücü qrupların ixtiyarına buraxmaq olmaz”*

**Qafqaz Müsəlmanları İdarəsinin internet televiziyası fəaliyyətə başlayıb. Bu barədə QMİ-nin əməkdaşı Rauf Sərdarov məlumat verib. O qeyd edib ki, ”YouTube”da yayımlanan internet televiziyası ”114 TV” adlanır:**

”İnternet televiziya kanalı Ramazan ayı ilə əlaqədar bu gündən fəaliyyətə başlayıb. Hər gün iftardan yarım saat öncə Ramazan söhbətləri ilə bağlı veriliş efirə gedəcək. Ancaq Ramazan ayından sonra da fəaliyyətimiz davam edəcək, Qafqaz Müsəlmanları İdarəsinin fəaliyyəti, eyni zamanda dini maarifləndirmə ilə bağlı verilişlər yayımlanacaq”.

**QMİ-nin təşəbbüsünü ”Şərq”ə dəyərləndirən tanınmış jurnalist, dini yazar Kənan Rövşənoğlu bunu gözəl iş adlandırıb.** Jurnalist bunun gecikmiş addım olduğunu, daha əvvəl də reallaşdırmağın mümkünlüyünü ifadə edib: ”Cəmiyyətdə dini maariflənməyə ehtiyac var. Bu sahəni boş buraxmaq, internet üzərindən fəaliyyət göstərən marginal, bölücü qrupların ixtiyarına buraxmaq olmaz. İnsanlar dini mövzularla maraqlanırlar. Gündəlik həyatın hansısa məqamında dini mövzularla qarşılaşır və bu zaman yaranan suallara cavab tapmalı olurlar. Əlbəttə, bu zaman müraciət etdiyi internet resurslarında çoxlu sayda məlumatlarla rastlaşır və bu zaman təsir altına düşmə ehtimalı artır. Buna görə də dini biliklərin daha etibarlı mənbədən paylanması zərurəti yaranır. Hazırda internet imkanları onlayn televiziya yaratmağı əvvəlki dövrlə müqayisədə xeyli asanlaşdırıb. Bu mənada QMİ-nin açdığı TV-nin yalnız Ramazan ayında deyil, il ərzində fəaliyyət göstərməsi, dini maarifçilik fəaliyyətini davam etdirməsi təqdir olunacaq hadisədir. Əsas məsələ, əlbəttə, indi o kanalın işini necə qurmaqdan asılı olacaq. Əgər yaxşı iş qurulsa, ümid edirəm tezliklə maraqlı və populyar bir internet TV-yə çevrilə bilər. Bunun üçün də zaman lazımdır”.

**İsmayıl**

## Eyni məktəbin 2 müəllimi koronavirusdan vəfat etdi



**Dörd gün ərzində eyni məktəbdən iki müəllim koronavirusdan vəfat edib.**

”Qafqazinfo” xəbər verir ki, söhbət Bakıda yerləşən 20 nömrəli məktəb-liseyin müəllimləri İradə Tağıyeva və Lalə Kərimovadan gedir.

Riyaziyyat müəllimi olan İradə Tağıyeva aprelin 10-da, İngilis dili fənnini tədris edən Lalə Kərimova isə dünən Covid-19-un qurbanı olub.

## Daha 2 293 nəfər koronavirusa yoluxub

### 31 nəfər vəfat edib, 2 071 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2 293 yeni yoluxma faktı qeydə alınıb, 2 071 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 31 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 291 894 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 255 833 nəfər müalicə olunaraq sağalıb, 4 009 nəfər vəfat edib, aktiv xəstə sayı 32 052 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 14 086, ötən müddət ərzində isə ümumilikdə 3 054 472 test aparılıb.*

**Kənan**

# Kasıb-kusuba da icazə verin

## Onsuz da restoranlarda toy mərasimləri keçirilir

“Sağlam Cəmiyyət" İctimai Birliyinin sədri, sosioloq Lalə Mehralı feysbuk hesabından status paylaşıb. Toylar barədə:

"Restoranlarda toy mərasimləri keçirilir. Girişdə qonaqlara mərasim zalında telefondan istifadə etməmək barədə qəti tapşırılır, əgər hansısa qonaq bir foto çəkərsə, paylaşarsa, toy restoran rəhbərliyi tərəfindən dayandırılır, qonaqlar çıxarılır, ofisiantlar qonaqlara foto çəkməyə imkan verib, deyə işdən azad edilir.

Restoranların adlarını da bilirəm, amma ”görəsən hansında olur?”, deyə fikirləşməyə ehtiyac da yoxdur, bütün restoranlarda olur toy, səs desibli azaldılır deyə ətrafdan bilinmir. Belə də ki, düz edirlər toy edənlər, ordakı sıxlıq avtobusdakından çox olası deyil ki?!"

Sərt karantin tətbiq ediləndən, şadlıq sarayları bağlanıb toylara qadağa qoyulandan kənddə, şəhərdə - hər yerdə ailələrin kütləvi nişan, xınayaxdı, böyük və kiçik toy keçirdiklərinin şahidi oluruq. Bəli, polis duyuq düşəndə (və ya duyuq salınanda - M.R.) məclisi dağıdır. Cərimə olunan, inzibati cəza alan, kamera qarşısında ağzı maskalı, amma boynu bükük dayanan vətəndaşlarımızı da görürük. Ötən il bu vaxtlar belə hallar və görüntülər insanlarda ”ar olmur da bu camaata, dünya virusdan ”alışıb-yanır”, bizimkilər öz keflərindədi. Gözləyin də bir az” təpkiləri yağırdısa, indi vəziyyət dəyişib. Təpkilər də səngiyib. O səbəbdən ki, daha hamı karantindən bezdi. Karantindən əvvəl bəxti gətirib nişanlananlar bilmir çinliləri qarğasın, yoxsa ”Pentaqon”u. Arada özümüzünüklərə də yetirlər. Baş qaxıncı isə əsasən avtobuslar və kafe-restoranlardı: avtobuslarda camaat bir-birinin belinə ”minir”, kafelərdə, restoranlarda maskasız, qabaq-qənşər əyləşib nahar, şam edirlər, onda yoluxma olmur, elə bircə toyda olur?!”. İnsafən, haqsız da deyillər. Doğrudur, hazırkı şəraitdə insafmürvətdən yox, real vəziyyətdən baxmalıyıq duruma. Amma 1 ildən artıq karantin vəziyyətində olan ölkədə araşdırma aparılıbmı ki, yoluxmanın artmasına səbəb nədir? 1 ildir kütləvi yas mərasimləri keçirilmir, toylara da icazə yoxdur. Gizli-saxlı yaslar, toylar olur, amma belə məclislərdə iştirakçı sayı azdır. Əvvəlki kütləvilik yoxdur. Deməli, yoluxma sayının artmasında yas və toy məclislərinin payı çox kiçikdir. Elə isə 1 ildir toy gözləyənləri nəzərə alıb hansısa qaydalar çərçivəsində toylara icazə vermək olmazmı?

**Mövzunu toylarla bağlı status yazmış sosioloq Lalə Mehralı ilə davam etdirdik. O, ”Şərq”ə açıqlamasında 30-40 nəfərlik toy məclislərinə icazə verilməsinin tərəfdarı olduğunu dedi:**



*“Elə ailələr var kiçik, orta həcmli toya razıdırlar, təki rəsmi icazə olsun. Hesab edirəm ki, hökumət bunu nəzərə almalı və toy qadağası qaldırılmalıdır”*

- Xalqın adət-ənənəsini bu qədər görməzdən gəlmək doğru deyil. Karantin illərlə davam edə bilməz. İnsanlar artıq tibbi maska taxmaqdan da bezliblər, toy qadağasından da. Həmin statusu səbəbsiz yazmamışam. Tanışlardan, kənar adamlardan dəfələrlə eşitmişəm ki, kiminsə - istər qohum olsun, istər dost, rəfiqə, toyunda iştirak ediblər. Statusda qeyd etdiyim kimi, restorana daxil olanda mobil telefonları söndürməyi və istifadə etməməyi tapşırıblar. Toylara icazə olmadığından xəbərin yayılmasını istəməyiblər. Belə gizli toylar keçirilir. Bir halda ki, gizli şəkildə toy məclisləri təşkil edilir, kiçik həcmdə, 30-40 nəfərin iştirakı ilə, müəyyən qaydalara riayət olunmaqla toy məclislərinin keçirilməsinə icazə verilə bilər. Bəzi şərtlər, qaydalar tətbiq edilməklə toy qadağası qaldırılmalıdır. Çünki insanlar boğaza yığılıb, partlamaq dərəcəsinə gəliblər. Valideynlər övladlarının xeyir işini görmək istəyir. Övladlarından nigaran köçmək istəmirlər dünyadan. Ona görə də hətta cərimələri, cəzaları gözə alaraq toy edirlər. Xalqımızın adət-ənənəsi var. İnsanların bu adətlərdən qısa zamanda, 1 il içində əl çəkmələrini gözləmək absurddur. 30-40 nəfərin iştirakı ilə, masalar arası lazımi məsafə saxlanmaqla, masa ətrafında deyək ki, 5 nəfərin əyləşməsi şərti ilə keçiriləcək toylardan narahat olmamalıyıq. Narahatlıq gün ərzində saatlarla basabas, sərnişin sıxlığı yaşanan avtobuslarla bağlı yaşanmalıdır. İnsanlar avtobusda nəfəs-nəfəsə səyahət edir. Kafelərdə, restoranlarda saatlarla sıx məsafədə əyləşib nahar edirlər. Toylara qadağanı davam etdirməklə yoluxma sayında azalmaya nail oluna bilməz. Yoluxma sayının azalması üçün başqa variantlara baxmaq lazımdır.

**L.Mehralı toy növbəsində dayananların az qonaq sayı ilə razılaşmayacağını da bildirdi:**

- Hamımız bilirik ki, toylar həm də nəmər yığmaq fürsətidir. Elə adamlar var, illərlə qohum, dost-tanış toyunda iştirak edib, nəmər salıb, indi də övladına toy edib verdiklərini toplamaq istəyir. Təəssüf ki, bu da bizim ”adət-ənənəmiz”dir. Əlbəttə, belələri 30-40 nəfərlə toy məclisi ilə razılaşmayacaq. Ürəklərindən olmayacaq. Lakin elə ailələr var kiçik, orta həcmli toya razıdırlar, təki rəsmi icazə olsun. Hesab edirəm ki, hökumət bunu nəzərə almalı və toy qadağası qaldırılmalıdır.

**Məlahət Rzayeva**

## Ukrayna tarixi unutdurmaq istəmir

### Ancaq "Krım platforması" Kremlin qəzəbinə səbəb olacaq



**"Ukrayna Prezidenti Vladimir Zelenskinin təşəbbüsü ilə avqustun 23-də Kiyevdə "Krım platforması" adlı beynəlxalq konfrans keçiriləcək.**

Aydındır ki, bir konfransla Krım problemini həll etmək mümkün deyil. Ancaq Kiyev istəmir ki, beynəlxalq aləm Krımı unutsun. Ona görə də konfrans vasitəsilə diqqəti yarımadaya cəlb etməyə çalışır".

**Bu sözləri "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu deyib.**

O, konfrans barədə proqnozlarını "Şərq"lə bölüşdü: "Vladimir Zelenski Türkiyəyə səfəri zamanı Prezident Rəcəb Tayyib Ərdoğanı da adıçəkilən konfransa dəvət etdi. Ərdoğan dəvəti qəbul etdi. O da aydındır ki, "Krım platforması" Kremlin qıcığına səbəb olub.

Kremlin minimum və maksimum hədəfi var. Minimum hədəfi böyük dövlətlərin Krımı unutmasıdır. Maksimum hədəfi isə budur ki, yaxşı halda Rusiyaya tərəfdaş ölkələrdən bir neçəsi Krımı Rusiyanın ərazisi kimi tanısın. Kiyevin məqsədi isə Kremlin minimum və maksimum hədəflərinə çatmağa mane olmaqdır.

Krımı beynəlxalq hüquq normalarına uyğun Ukrayna ərazisi tanıyan, ancaq Kremli qıcıqlandırmamaq üçün Kiyevdəki tədbirə qatılmayanlar da olacaq".

**Kənan Novruzov**

## Moskva rəsmi Tokiodan izahat gözləyir



**Rusiyanın Xarici İşlər Nazirliyi Yaponiyaya etiraz edib.**

Bu barədə "Şərq " TASS-a istinadən xəbər verir. Etiraza səbəb Yaponiyanın Fokusima-1 nüvə stansiyasındakı suyun okeana axıdılmasından əvvəl Moskva ilə razılaşmanın aparılmamasıdır.

Bu addıma görə Kreml rəsmi Tokiodan izahat gözləyir.

**Kənan**

## İki həftəyə bitəcək

### Peskov: "Rusiya təlimlərə görə izahat verməyə məcbur deyil"



**Rusiya qərb sərhədlərində hərbi təlimləri davam etdirir.**

"Şərq" "RİA Novosti"yə istinadən bildirir ki, bu barədə Rusiyanın Müdafiə naziri Sergey Şoyqu məlumat verib. O, yoxlama tədbirlərinin iki həftə ərzində tamamlanacağını deyib.

Bir müddət əvvəl ABŞ rəhbərliyi sözügedən təlimlərə istinad edərək Rusiyanın hərbi təcavüzünün artdığını vurğulamışdı. Rusiya dövlət başçısının sözçüsü Vladimir Peskov isə buna cavab olaraq Kremlin ölkə daxilində keçirdiyi təlimlər barədə kiməsə izahat verməyə məcbur olmadığını deyib.

**Kənan**

# Bayden Rusiyanın öz maraqlarından vaz keçəcəyinə inanır

### *Halbuki, ABŞ və Rusiya arasında yaxın vaxtlarda siyasi anlaşmaların ola biləcəyi o qədər də inandırıcı deyil*



ABŞ Prezidenti Co Bayden və Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub. Dövlət başçıları bir sıra regional və qlobal əhəmiyyətli məsələləri müzakirə edib. Bayden ABŞ-ın maraqlarına uyğun olaraq Rusiya ilə stabil və proqnozlaşdırıla bilən münasibətlər qurmaq məqsədinin olduğunu təsdiqləyib. O, ABŞ və Rusiyanın qarşılaşdığı məsələlərin tam spektorlarının müzakirəsi üçün qarşıdakı aylarda üçüncü ölkədə görüş-sammit keçirməyi təklif edib.

Bundan başqa, C.Bayden Krımda və Ukrayna ilə sərhəddə Rusiya ordusunun gücləndirilməsindən narahatlığını ifadə edərək, ABŞ-ın bu ölkənin suverenliyini və ərazi bütövlüyünü dəstəkləməyə dair sarsılmaz öhdəliyinin olduğunu vurğulayıb. ABŞ prezidenti Rusiyanı gərginliyi azaltmağa çağırıb.

**Telefon danışığına dair fikirlərini "Şərq"lə bölüşən politoloq Elçin Xalidbəyli bildirib ki, ABŞ və Rusiya arasında qarşıdurma təhlükəli həddə çatıb. Analitik vurğulayıb ki, siyasi faktorlar üzərindən intensivləşən ziddiyyətlər artıq hərbi-siyasi xarakterli qarşıdurmaya çevrilib:** "Baydenin Kreml sahibi Vladimir Putini "qatil" adlandırmasından sonra ABŞ və Rusiya arasında münasibətlər "soyuq müharibə" mərhələsinə keçib. Bu mərhələdən real müharibə təhlükəsinə isə o qədər böyük məsafə yoxdur. Yəni iki nəhəng nüvə dövləti arasında silahlı toqquşma ehtimalı olduqca ciddiləşib. Xüsusilə də, Ukrayna böhranı ABŞ-Rusiya qarşıdurmasına savaş təhlükəsi qatır. Çünki hər iki nəhəng dövlət Ukrayna sərhədləri ətrafında olduqca böyük hərbi qüvvə cəmləşdirib. Üstəlik, ABŞ Rusiya qarşıdurmaya artıq NATO-nu da ortaq etməyə nail olub. Bu o deməkdir ki, hər an həmin hərbi qüvvələr savaş meydanında qarşılaşmaq məcburiyyətində qala bilərlər. Təbii ki, belə vəziyyətdə qarşı duran tərəflər təhlükəli situasiyadan çıxış yolu tapmaq məcburiyyətindədirlər. Əslində hər iki tərəfə də Ukrayna ucbatından bir-biriylə savaşa girmək qətiyyən sərf etmir. İndiyə qədər Ağ Ev hərbi-siyasi təzyiqlərlə Rusiyanı geri çəkilməyə məcbur edə biləcəyinə ümid bəsləyirdi. Ancaq məlum oldu ki, Kreml heç bir halda, geri çəkilmək niyyətində deyil. Ukrayna böhranında Rusiyanın "sonuncu qala"sını müdafiə etmək niyyətindədir.

Ona görə də, Prezident Bayden nəhayət ki, Rusiyaya hərbi-siyasi qarşıdurma ilə ABŞ-ın şərtlərini Kremlə qəbul etdirməyin mümkün olmayacağı qənaətinə gəldi. Nəticədə, Rusiyanı siyasi təzyiqlərlə geri çəkilməyə sövq etmək üçün növbəti dəfə cəhd göstərməyə çalışır. Belə anlaşılır ki, Prezident Co Bayden Kreml sahibi V.Putinlə üz-üzə görüşdə ABŞ-ın şərtlərini Rusiyaya qəbul etdirməyin mümkünlüyünə ümid bəsləyir".

*E.Xalidbəylinin sözlərinə görə, hər halda, Bayden Rusiya ilə münasibətləri ABŞ-ın maraqlarına uyğun şəkildə qurmaq niyyətində olduğunu vurğulayıb:* "Ancaq unutmaq olmaz ki, ABŞ-ın maraqları Rusiyanın mənafeləri ilə kəskin ziddiyyət təşkil edir. Deməli, Bayden ABŞ-la stabil münasibətlər xatirinə Rusiyanın öz maraqlarından vaz keçə biləcəyinə inanır. Halbuki, Kremlin belə güzəştlərə hazır olduğuna inanmaq olduqca çətindir. Əgər bu mümkün olsaydı, Ukrayna böhranı ətrafında qarşıdurmaya Rusiya bu qədər kəskin reaksiya verməzdi.

Baydenin Ukraynanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulayaraq, Rusiyanı regionda gərginliyi azaltmağa çağırması da maraq doğurur. Çünki Ukraynanın ərazi bütövlüyünə yalnız separatçı Donbass bölgəsi deyil, həm də Rusiya tərəfindən ilhaq olunmuş Krım yarımadası da daxildir. Bu baxımdan, ABŞ və Rusiya arasında yaxın vaxtlarda siyasi anlaşmaların ola biləcəyi o qədər də inandırıcı deyil. Xüsusilə də iki ölkə arasında ABŞ-ın maraqlarına uyğun münasibətlərin qurula biləcəyi real görünmür".

**Politoloq qeyd edib ki, Bayden-Putin görüşünün ABŞ-Rusiya münasibətlərində müsbətə doğru ciddi dəyişikliklərə yol aça biləcəyi qətiyyən inandırıcı görünmür:** "Böyük ehtimalla bu görüş sayəsində Ağ Ev Kremli növbəti dəfə sınağa çəkməyə çalışa bilər. Bu sınaq Ağ Evin gözlədiyi nəticəni verməzsə, onda hadisələrin əsasən iki variant üzrə inkişaf edəbiləcəyini düşünmək olar. Birinci variant odur ki, qarşı duran tərəflər heç bir halda anlaşa bilməyəcəklər və dünya ABŞ-Rusiya müharibəsi təhlükəsi ilə qarşı-qarşıya qalacaq.

İkinci variantdasa, hər iki tərəf qüvvələr nisbətinin rəqiblərin bir-birinə qarşı mütləq üstünlük qazanması üçün yetərli olmadığını qəbul etməli olacaqlar. Bu haldasa, hər iki tərəf savaşdan yayınmaq üçün qarşılıqlı güzəştlər çərçivəsində geri çəkiləcəklər.

Ukrayna ətrafındakı böhranlı situasiya müvəqqəti olaraq, dondurulacaq və daha sonra ümumiyyətlə, arxa plana keçiriləcək. Ardıncasa, ABŞ və Rusiya dünyanın siyasət məkanında bir-birinin maraqlarını nəzərə almaqla, öz hədəflərini reallaşdırmağa cəhd göstərəcəklər.

Yəni prezident Co Baydenin Kreml sahibi V.Putinlə görüşmək istəyi Ağ Evin Rusiya ilə savaşa aparan qarşıdurma mühitindən çıxış yolu axtarması kimi də dəyərləndirilə bilər".

**Yeganə Bayramova**

# Ermənistan prezidenti əl-ayağa düşüb

### İndi də Gürcüstanın qapısına getdi

Ermənistan prezidenti Armen Sarkisyan Gürcüstana rəsmi səfər edəcək. Bu barədə Gürcüstanın Prezident Administasiyasından bildirilib. Məlumata əsasən, A.Sarkisyan gürcü həmkarı Salome Zurabişvili ilə təkbətək və geniş tərkibli formatda görüş keçirəcək. Daha sonra onlar mətbuata birgə bəyanatla çıxış edəcəklər.

Ermənistan prezidentinin səfər çərçivəsində parlament sədri Arçil Talakvadze ilə də görüşü planlaşdırılıb.

**Mövzu ilə bağlı "Şərq"ə danışan politoloq Qabil Hüseynli bildirib ki, Gürcüstan Azərbaycanla tərəfdaş olsa da, Ermənistanla da əlaqələri pozmaq istəmir:** "Gürcüstanla Azərbaycan strateji tərəfdaşdır. Bir çox məsələlərdə bizimlə eyni xətt üzrə hərəkət edir. Ama Ermənistanla da münasibətləri pisləşdirmək istəmir.



Bölgədə iqtisadi problemlərin həlli ilə bağlı "Altılıq" sazişi məsələsi var. Məlum məsələyə görə Gürcüstan Rusiyanın olduğu bir layihəyə qatılmaq istəmir. Ermənistan da Rusiyanın əlaltısıdır. Bölgədə aranı qarışdırmaqla məşğuldur.

Ermənistan böyük bir iqtisadi zona deyil ki, Gürcüstana yardım etsin. Gürcüstan da bir sıra-işıq, qaz, neft və sair kimi iqtisadi məsələlərdə Azərbaycandan asılıdır. İndi hər iki dövlətin iqtisadi əməkdaşlıq qura bilmələri real görünmür.

Mənə elə gəlir ki, onlar yenə də Abxaziyadan keçən dəmir yolunu müzakirə edəcəklər. Ermənistanı Rusiya ilə birləşdirən əsas yol onların öz ərazisindən, bir də Gürcüstanın işğal edilmiş Abxaziya ərazisindən keçir.

Yəni bu görüşdə, əsasən, Ermənistan öz logistik arzularını gerçəkləşdirməyə çalışacaq".

**Ağarza Elçinoğlu**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# İndi inkişaf və tərəqqi zamanıdır

## *Azərbaycan Qafqazın ən mürəkkəb münaqişəsini ordusunun gücü ilə söndürdü*

Aprelin 13-də Prezident İlham Əliyev "Cənubi Qafqaza yeni baxış: Münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda 3 saatlıq çıxış zamanı regiondakı reallıqları dünyanın diqqət mərkəzinə çatdırdı. Dövlət başçısı Ermənistana və beynəlxalq aktorlara mühüm ismarıclar ünvanladı.

Ali Baş Komandan çıxışında Ermənistanın müharibəyə qədər, müharibə zamanı və müharibədən sonra atdığı addımları, hazırda sülhün güclənməsinə mane olan məqamları və region qarşısında dayanan çağırışları beynəlxalq ekspertlərin diqqətinə yönəltdi. Hər dəfə olduğu kimi, bu dəfə də dövlət başçısının Azərbaycanın baxış bucağını qəti və açıq şəkildə bəyan etməsi ölkəmizin postmüharibə dövründə mövqeyini gücləndirdi. Eyni zamanda beynəlxalq ictimaiyyətin Qafqazdakı sülh dövrünün reallıqlarını daha yaxşı anlamasına gətirib çıxartdı. Postmüharibə dövründə sülhün möhkəmləndirilməsinin vacibliyindən danışan Prezident Azərbaycanın sülhə hazır olduğunu, gələcəyə baxmağın zəruriliyini, lakin Ermənistan rəhbərliyinin sülh razılaşmasının mümkünlüyü barədə hələ də bəyanat vermədiyini qeyd etdi. Yenidən vurğuladı ki, münaqişə səhifəsi artıq geridə qalıb. Dövlət başçısı Ermənistandakı revanşist qüvvələrə də toxunaraq onlara xəbərdarlıq etdi. Bildirdi ki, indiyə qədər ermənilər Azərbaycanı yaxşı tanımayıblar. Doğrudan da, Ermənistandakı revanşist qüvvələrin ilk növbədə cəmiyyətləri haqqında düşünmələri daha məqbul olardı. Hazırda dövlətçilikləri sual altında olan, 30 il ərzində öz evlərini və dövlətlərini, sərhədlərini özlərinin qoruya bilmədiyi dövlətin nümayəndələrinin "gücləndikdən və hazır olduqdan sonra" Azərbaycandan revanş alacaqları ilə bağlı çıxışları gülüncdür.

Ölkə başçısı vurğulayıb ki, Ermənistandakı vətəndaş cəmiyyətləri erməni xalqına həqiqətləri deməyə başlamalıdır: "Konflikt həll olunub və biz gələcəyə baxmalıyıq. Ermənistanın vətəndaş cəmiyyətindən daha çox şey gözləyirik. Nə hökumət, nə də müxalifət bu gün onlara nəinki Azərbaycan haqqında pozitiv, hətta neytral söz deməyə şərait yaradar. Çünki bu, Azərbaycanofobiya konsepsiyasıdır, Azərbaycana qarşı onilliklərlə yaradılmış nifrətin kultivasiyasıdır. Müharibədən sonrakı vəziyyət nümayiş etdirdi ki, indi qonşularımız regional inkişafla bağlı bizim fikirlərimizi paylaşırlar. Yeri gəlmişkən, biz artıq qonşu ölkələrlə regionun necə inkişaf etməli olduğu, nəqliyyat, logistika, enerji əməkdaşlığı, ticarət layihələrinin nə olmağı barədə müzakirə etmişik. Beləliklə, bizim heç bir fikir ayrılığımız yoxdur. Bu düzdür ki, Ermənistan hələ öz siyasətini ictimai şəkildə elan etməyib, amma "defakto" etdikləri düşünürəm ki, qənaətbəxşdir".

> "Azərbaycanın Ermənistanla əməkdaşlığının perspektivi Prezident İlham Əliyevin vurğuladığı kimi, Ermənistanın siyasi rəhbərliyinin davranışlarından asılıdır"

Prezident bəyan edib ki, əgər Ermənistan əlaqə qurmaq istəyərsə, biz də əlimizdən gələni etməyə hazırıq: "Azərbaycanlılar və ermənilər necə qarşılıqlı əlaqə qura bilərlər? Mən düşünürəm ki, bu, xeyli dərəcədə istəkdən, siyasətçilərin müdrikliyindən asılı olacaq. Hesab edirəm ki, biz burada və İrəvanda körpülər qurmaq üçün fəal olmalıyıq. Əlbəttə ki, Ermənistan tərəfi əgər bunu istəyirsə... Biz onların niyyətlərinin nə olduğunu bilmirik, bu işlənib hazırlanmayıb. Mən bir neçə dəfə aydın şəkildə bildirdim: - Biz hesab edirik ki, münaqişə səhifəsi artıq geridə qalıb. Ermənistan tərəfi ilə sülh razılaşmasının mümkünlüyü barədə biz qarşı tərəfdən bununla bağlı hər hansı mesaj almamışıq. Ermənistan Baş naziri sakitdir, Ermənistan xarici işlər naziri aqressivdir. Hazırda Ermənistan Azərbaycana qarşı aqressiv münasibəti aradan qaldıra biləcək durumda deyil. Onlar müharibədə nələrin baş verdiyini xatırlamalıdırlar. Ermənistan müxalifəti panikadadır. Azərbaycanafobiya, Türkofobiya əvvəllər də olduğu kimi, ən böyük məsələdir. Əgər Ermənistanın müsbət siqnalı olarsa, əlaqə qurmaq istəyərsə, biz də əlimizdən gələni etməyə hazırıq". Ölkə başçısı qeyd edib ki, Ermənistan tərəfindən revanş cəhdləri riskləri sıfır olmalıdır. Dövlət başçısının sözlərinə görə, inkişaf üçün Azərbaycan daxilində, eləcə də sərhədlərdən kənarda stabilliyə ehtiyacımız var: "Əsas narahatçılığımızdan biri risklərlə bağlıdır və onları minimallaşdırmaq üçün addımlar atacağıq. Regionda əməkdaşlıq yaratmağımız beynəlxalq uğurumuzdur. Buraya Türkiyə-İran, Gürcüstan-Türkiyə, Rusiya-İran üçtərəfli əməkdaşlığı daxildir. Beləliklə, bu, stabilliyə töhfədir. Əlbəttə ki, Ermənistan tərəfindən revanş cəhdləri riskləri sıfır olmalıdır". Dövlət başçısı diqqətə çatdırıb ki, Ermənistan ordusunun Rusiya ilə birlikdə modernləşdirilməsi planları suallar doğurur: "Biz öz mövqeyimizi rusiyalı tərəfdaşlarımıza bildirmişik. Bu, nə üçün edilir?". Rusiyanın sülhməramlı kontingenti regionu tərk edəndən sonra nə olacaq barədə suala cavab verən dövlətimizin başçısı deyib ki, bizim Tovuzda, Zəngilanda Ermənistanla sərhədlərimiz var: "Sərhəd qoşunlarımız Ermənistan tərəfinin bilavasitə yaxınlığındadır. İnsidentlər varmı? Yoxdur. Ermənistan ordusu yoxdur, mənəvi cəhətdən sarsılıb, bizim qoşunlarımız beş metrlikdə dayanıblar. Lakin bizim heç bir hərbi planımız yoxdur". Prezident deyib ki, atəşkəs əldə olunmasına baxmayaraq, münaqişə ilə bağlı çoxlu suallar qalmaqdadır: "Müharibədən sonra vəziyyət dəyişib. Atəşkəs əldə olunmasına baxmayaraq, münaqişə ilə bağlı çoxlu suallar qalmaqdadır. ATƏT-in Minsk qrupundan regionda dinc həyatın nizamlanması üzrə təkliflər gözləyirik. Hesab edirəm elə sahələr var ki, onlar orada münaqişədən sonrakı vəziyyətə təsir göstərməkdə rol oynaya bilərlər. Münaqişənin həllinə kömək edən qrup kimi yox, çünki münaqişə artıq həll olunub. Ümidvaram ki, Minsk qrupunun nümayəndələri tezliklə Azərbaycana bir sıra təkliflərlə gələcəklər".

Millət vəkili Hikmət Babaoğlu "Şərq"ə açıqlamasında deyib ki, Prezident konfrans vasitəsilə dünyaya iki mühüm mesaj verdi. Parlament üzvünün sözlərinə görə, bunlardan biri artıq müharibənin və münaqi**şənin bitməsi, digəri isə Azərbaycanın yeni mərhələni inkişaf və əməkdaşlıq mərhələsi kimi görməsinin bəyanı idi:** "Dövlət başçısı Azərbaycanın hazırkı mövqeyinin yeni reallıqda əməkdaşlığın və inkişafın bərqərar olmasına, regionun kommunikasiya və iqtisadi bütövlüyünün təmin edilməsinə və bu prosesdə səmərəli əməkdaşlıq platformasının yaradılmasının vacibliyinə yönədiyini bildirdi. Bunun üçün ilk növbədə Ermənistanın prosesə qoşulması və Azərbaycanafobiyadan qurtulması və yaranmış yeni reallığı obyektiv əsaslarda dərk etməsinin zəruriliyini vurğuladı. Qafqaz kimi mürəkkəb bir regionda yaradılmış ən mürəkkəb münaqişə ocaqlarından birini Azərbaycanın öz güclü ordusu vasitəsilə söndürməsi hamıya məlumdur. Bu, ölkəmizə yeni qalib ölkə statusu qazandırıb. Bütün dünya bu yeni reallığı düzgün qiymətləndirməli, Azərbaycanın əməkdaşlıq və tərəfdaşlıqla bağlı təşəbbüslərini tarixi fürsət kimi dəyərləndirməlidir. Ancaq hər şeydən öncə Ermənistan öz mövcudluğu üçün bu tarixi fürsəti əldən verməməlidir. Çünki Azərbaycan bütövlükdə regionumuzun tarixində geri dönülməsi mümkün olmayan mühüm strateji reallıq yaradıb və gec-tez hamı bununla hesablaşmalı olacaq".

**Politoloq, BAXCP sədrinin müavini Elçin Mirzəbəyli də bəyan edib ki, Azərbaycanla müharibədə acınacaqlı məğlubiyyətə uğrayan Ermənistan kollaps vəziyyətindədir və bu ölkənin yeganə çıxış yolu mövcud reallıqları qəbul etməkdən və ona uyğun davranmaqdan ibarətdir.** Ekspertin fikrincə, hazırda Ermənistan iqtisadiyyatına yatırımların 40 faizdən çoxunu Rusiya sərmayəsi təşkil edir: "Nəzərə alsaq ki, bu reallıq son 20 ildə ciddi şəkildə dəyişikliyə məruz qalmayıb, o zaman Ermənistan iqtisadiyyatının Rusiyanın ənənəvi dəstəyi ilə inkişafı mümkün deyil. Beynəlxalq reytinq agentliklərinin hesablamalarına görə, mövcud şərtlər altında Ermənistanın xarici borcunun 2023-cü ilədək 63 faiz artacağı gözlənilir. Hətta bu göstəricinin özü belə siyasi sabitliyin təmin olunacağı və hakimiyyət böhranının aradan qaldırılacağı halda mümkün olacaq. Məhz bu baxımdan, parodoksal görünsə də, Ermənistandakı mövcud iqtisadi və sosial problemlərin həlli yolu, bu ölkənin Azərbaycana və Türkiyəyə münasibətdə sərgiləyəcəyi siyasətdən asılıdır. Yalnız bu halda Ermənistan regiondakı iqtisadi proseslərə inteqrasiya edə və kommunikasiyaların bərpası nəticəsində əldə edəcəyi "iqtisadi nəfəslik"dən faydalana bilər. Ermənistan iqtisadiyyatı üçün həyati əhəmiyyət kəsb edən başqa bir məqam isə bu ölkənin Türkiyə ilə sərhədlərinin açılmasıdır. Bu isə yalnız rəsmi İrəvanın qonşulara qarşı ərazi iddialarından həmişəlik əl çəkəcəyi, kommunikasiyaların bərpa ediləcəyi və Zəngəzur dəhlizinin işə düşəcəyi halda mümkün ola bilər. Məlum olduğu kimi Ermənistanın Rusiya ilə birbaşa sərhədi yoxdur. Hətta Rusiya-Ermənistan iqtisadi münasibətlərinin intensivləşməsinin özü belə, yenə də kommunikasiyaların bərpası nəticəsində mümkün ola bilər ki, burada da açar ölkə, şübhəsiz ki, Azərbaycandır. Ermənistan iqtisadiyyatının dirçəldilməsinin yeganə yolu, bu ölkənin tranzit imkanlarının yaranmasından keçir. Bu isə təbii ki, Azərbaycan və onun sadiq müttəfiqi Türkiyənin iştirakı olmadan mümkün deyil. Azərbaycanın Ermənistanla əməkdaşlığının perspektivi isə Prezident İlham Əliyevin vurğuladığı kimi, Ermənistanın siyasi rəhbərliyinin davranışlarından asılıdır".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# "Rusiya və ABŞ arasında kəskin mübarizənin şahidi olacağıq"

Ötən gün ABŞ Prezidenti Co Bayden və Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub. Telefon danışığı zamanı ABŞ Prezidenti rusiyalı həmkarı Putini başqa ölkədə sammit keçirməyə çağırıb. C.Bayden Rusiya ilə sabit əlaqələr qurmağı hədəflədiyini təsdiqləyib və iki ölkənin qarşısında duran bütün məsələlərin müzakirəsi üçün növbəti aylarda üçüncü ölkədə sammit keçirməyi təklif edib. Həmçinin telefon danışığı zamanı silahlara nəzarət üzrə dialoqu davam etdirmək niyyəti də müzakirə olunub.



"Co Baydenin Putinə çağırışları hələ əməkdaşlıq, yaxud qarşılıqlı inteqrasiya demək deyil"

*Politoloq Nurlan Qələndərli: "ABŞ Rusiyaya yönəlik daha aqressiv və geosiyasi pressinq xarakterli strateji kurs reallaşdıracaq"*

***Mövzu ilə bağlı "Şərq" olaraq politoloq Nurlan Qələndərli ilə söhbətləşdik.***

**- ABŞ-Rusiya münasibətlərinin hazırkı vəziyyətini necə xarakterizə etmək olar? Mövcud durum hər iki ölkə, o cümlədən regional və beynəlxalq təhlükəsizlik üçün nə vəd edir?**

- Hər iki ölkə müasir dünya siyasəti və beynəlxalq münasibətlər sistemində mühüm təsir imkanlarına malik olan geopolitik güc mərkəzləri kimi çıxış edir. Bu hegemon qüvvələr arasında münasibətlər strateji rəqabət və geosiyasi mübarizə müstəvisində cərəyan olunur. Yaxın dönəmin siyasi mənzərəsini analiz etdikdə görürük ki, Vaşinqton-Moskva münasibətləri 2014-cü ildən etibarən "İkinci soyuq müharibə" mərhələsinə qədəm qoyub. Eks-prezident Donald Tramp hələ seçki kampaniyası ərəfəsində Rusiya ilə münasibətlərin yaxşılaşdırılacağı anonsunu versə də, onun hakimiyyəti dövründə də hər hansı bir məsafə qət edilmədi. Əksinə, 2016-cı ildə qarşılıqlı şəkildə diplomatların sayı 3 dəfə azaldıldı. Bir il sonra Rusiya ABŞ-ın sanksiya tətbiq edilən ölkələr siyahısına daxil edildi. 2018-ci ildə isə hər iki ölkə qarşı tərəfin bir sıra siyasi xadimləri və biznesmenlərini daxil etdiyi "qara siyahı" tərtib etdi. Beləliklə, tərəflər arasında siyasi konfrontasiya elementlərini təşkil edən bu hallar münasibətlərdə yaxınlaşmanın qarşısını alan faktorlardan birinə çevrildi. Bu dönəmdə, həmçinin bəhs olunan güc mərkəzlərinin qlobal strateji rəqabətində yeni situasiya formalaşdı. Bilindiyi kimi, D.Trampın "Amerika prioritetdir" şüarı ilə hərəkət etməsi fonunda Birləşmiş Ştatlar NATO-nun gücləndirilməsi və Avropa İttifaqı ilə əlaqələrin sıxlaşdırılması xəttindən imtina etdi. Eyni zamanda, ABŞ Yaxın Şərqdə və digər bir sıra regionlarda öz maraq dairəsinə aid olan bir sıra məsələlərdə qeyri-prinsipial və passiv mövqedən çıxış etdi. Bu isə Rusiyanın geostrateji manevr sahəsinin genişlənməsinə və bir sıra bölgələrdə təsir imkanlarının artmasına zəmin yaratdı. Moskva bu strateji avantajdan müəyyən qədər səmərəli istifadə edə bildi, xüsusilə Suriya məsələsində qarşı tərəfi bəzi güzəştlərə məcbur etdi. Bütün bunlara baxmayaraq, ABŞ-da keçirilən sonuncu prezident seçkilərindən sonra bu ölkənin strateji institutlarında Rusiya ilə iş sahəsində paradiqma dəyişikliyinin olduğu görünür.

**- Bu dəyişiklik nədən ibarətdir və qarşıdakı dövrdə hansı addımların atılması gözlənilir? Ümumiyyətlə, iki ölkə münasibətlərinə aid proseslər hansı formada cərəyan edəcək?**

- Əvvələ qeyd edim ki, ABŞ Rusiyaya yönəlik daha aqressiv və geosiyasi pressinq xarakterli strateji kurs reallaşdıracaq. Son 7 il ərzində Rusiyanın mövqeyinin möhkəmləndiyi regionlara aktiv geoiqtisadi müdaxilələr edəcək. Təbii ki, Rusiya ənənəvi təsir dairələrində mövqeyinin zəifləməməsi üçün həm ciddi müqavimət göstərəcək, həm də yeni həmlələrlə çıxış edəcək. Düşünürəm ki, bu mərhələdə kəskin - gərgin strateji rəqabətin və mübarizənin şahidi olacağıq. Hətta bu güc mərkəzlərinin bəzi regionlarda dəstəklədiyi qüvvələr arasında lokal hərbi-siyasi qarşıdurmaların şahidi ola bilərik. Yeni mərhələdə ABŞ-ın xarici siyasətində Rusiyanı birbaşa maraqlandıran kardinal dəyişikliklərdən biri Birləşmiş Ştatların Avropa İttifaqı ilə əlaqələrinin genişləndirilməsi və NATO-nun gücləndirilməsi cəhdləri olacaq. Rusiya-Çin geoiqtisadi işbirliyinə qarşı ABŞ-Avropa İttifaqı iqtisadi-enerji əməkdaşlıq platformasının şaxələndiriləcəyi proqnozlaşdırıla bilər. Bunlarla yanaşı, Rusiyanın sərhədlərində və Moskvanın öz "sərhəd təhlükəsizliyi zonası" hesab etdiyi ərazilərdə NATO-nun varlığının artırılması, bu alyansın mövqeyinin möhkəmləndirilməsi istiqamətində də bir sıra addımların atılacağı gözlənilir. Lakin Rusiyanın Qafqaz regionunda, Mərkəzi Asiya və Yaxın Şərqdə yaxınmüddətli perspektivdə hərbi-siyasi mövqeyinin zəifləyəcəyini düşünmürəm. Onsuz da paradiqma dəyişikliyindən sonra və yeni strateji kursun fonunda ABŞ-ın ərazilərdə situasiyanı öz lehinə dəyişdirmək planı ortamüddətli perspektivə hesablanıb. Lakin bu prosesə start verilməsi fonunda Avrasiyanın bəzi "qaynar nöqtə"lərində də zaman-zaman tərəflərin birbaşa və dolayı iştirakı ilə hərbi-siyasi hərəkətlənmələrin olacağı qənaətindəyəm. Bunlarla yanaşı, Rusiyaya qarşı sanksiyaların davam etdiriləcəyini düşünürəm. Lakin "sanksiya immuniteti" formalaşmış Rusiyanın bu embarqolardan ciddi təsirlənəcəyi qənaətinə gəlmək olmaz. Moskva alternativ hərbi-siyasi və iqtisadi vasitələrlə bu embarqonun neqativ nəticələrini müəyyən qədər kompensasiya edə biləcək.

**- Bəs, Co Baydenin son çağırışından sonra iki ölkə arasında əməkdaşlığa yönəlik hansı addımların atılacağını düşünürsünüz? Ümumiyyətlə, yeni mərhələdə ABŞ-Rusiya dialoqu necə olacaq?**

- Ümumi götürsək, ABŞ Prezidentinin Rusiya Prezidenti ilə telefon danışığı zamanı səsləndirdiyi fikirlər bəzi məsələlər ətrafında dialoq platformasının yaradılması çağırışıdır. Bu hələ əməkdaşlıq, yaxud qarşılıqlı inteqrasiya demək deyil. Co Baydenin üçüncü ölkədə sammit təklifi iki ölkə üçün qlobal əhəmiyyətli bəzi məsələlərin müzakirəsi və yeni dönəmdə tərəflərin bir-birinin özlərinə yönəlik strateji prioritetlərini müəyyənləşdirməsi baxımından aktualdır. Düşünürəm ki, ABŞ və Rusiya arasında yaradılacaq yeni dialoq platformasında bir neçə məsələ prioritet olacaq. Bunlardan biri tərəflərin təsir imkanlarına malik olduğu strateji əhəmiyyətli regionlarda rəqabət, uzlaşma və əməkdaşlıq məsələsi olacaq. Razılaşmalar əldə ediləcəyi təqdirdə, bəzi regionlarda bu güc mərkəzlərinin birbirinə qarşılıqlı güzəştlərinin şahidi ola bilərik. Digər məsələ silahlara nəzarət üzrə dialoqun davam etdirilməsidir. Bu problem üzrə razılaşmaların qısa müddətdə əldə ediləcəyi qənaətində deyiləm. Yeni silahlara nəzarət üzrə müzakirələr müxtəlif formatlarda və səviyyələrdə davam edəcək, bəzən gərginlik səbəbi olacaq. Bütövlükdə, bütün bu məsələlər təkcə ABŞ və Rusiya üçün deyil, ümumilikdə regional və qlobal təhlükəsizlik baxımından strateji əhəmiyyətlidir. Yeni əməkdaşlıq şəraitinin yaranmasına baxmayaraq, tərəflər arasında geostrateji rəqabətin ən aktiv fazaya qədəm qoyacağını proqnozlaşdırmaq olar. Bir sözlə, beynəlxalq münasibətlər sistemində yeni mərhələyə keçidi sürətləndirəcək ABŞ-Rusiya strateji mübarizəsinin növbəti və daha gərgin fazası başlayıb.

**Aynurə Pənahqızı**

---

# Din ilahiyyat və mənəviyyat hadisəsidir

Azərbaycanda dini ekstremizmin təbliğinə yönəldilmiş fəaliyyət qadağan olunur. Bununla bağlı "Dini etiqad azadlığı haqqında" qanunda dəyişiklik edilir.

*"Dini dəyərlərimizin qorunması məqsədilə də ondan şəxsi istəkləri üçün istifadə edənlərin qarşısı qanunla alınmalıdır"*



Dəyişikliklə qanunun 1.3-cü maddəsinə yeni altıncı və yeddinci hissələr əlavə olunur. Layihəyə əsasən, dini ekstremizmin təbliğinə, həmçinin siyasi məqsədlər üçün dinlərarası fərqlərin istifadəsinə yönəldilmiş fəaliyyət qadağandır. Digər bir dəyişikliklə isə kütləvi dini ibadət, ayin və mərasimlərin icrası zamanı dini təlimin əsaslarının işıqlandırılması yalnız bu Qanunla müəyyən edilmiş qaydada təyin olunmuş din xadimləri tərəfindən həyata keçirilə bilər.

**Qanuna sözügedən dəyişikliklərlə bağlı "Şərq"ə rəyini bildirən millət vəkili, siyasi elmlər doktoru, professor Hikmət Babaoğlu qeyd etdi ki, din-cəmiyyət münasibətləri həmişə öz aktuallığı ilə seçilib. Və cəmiyyətin inkişafının müxtəlif mərhələlərində bu münasibətlərin qanunla nizamlanmasına ehtiyac yaranır:**

- Hər şeydən öncə qeyd etmək lazımdır ki, Azərbaycanda etiqad azadlığı hər bir vətəndaşa tanınan konstitusion hüquqdur və onun toxunulmazlığı qanunla qorunur. Ölkəmizdə multikultural mühit təkcə sosial-mənəvi kontekstdə deyil, həm də dini tolerantlıq və dözümlülük mühitində mövcuddur. Ancaq bəzən bütün cəmiyyətlərdə dinin müxtəlif qüvvələr tərəfindən istismar olunması və hətta ondan siyasi məqsədlər üçün istifadə edilməsi hallarına da rast gəlinir. Belə hallar dindən ekstremizm vasitəsi kimi istifadə etməyə qədər gətirib çıxara bilir. Ona görə də dindən başqa məqsədlər üçün istifadə edilməsi yolverilməzdir. Din hər şeydən öncə ilahiyyat və mənəviyyat hadisəsidir. Onu adiləşdirib zərərli məqsədlər üçün istifadə edilməsinə yol vermək olmaz. Din müqəddəsdir. Məhz elə dini dəyərlərimizin qorunması məqsədilə də ondan şəxsi istəkləri üçün istifadə edənlərin qarşısı qanunla alınmalıdır.

**H.Babaoğlu bildirdi ki, qəbul edilməsi nəzərdə tutulan qanun da elə buna xidmət edəcək:**

- Biz eyni zamanda bilirik ki, din sırf sosioloji kontekstdə hər nə qədər fərdi hadisədirsə, bir o qədər də kütləvidir. Yəni dinin idrak edilməsi ayrı-ayrı fərdlərin dərketmə hadisəsidirsə, onun ritualłaşması və ayinləşməsi artıq kütləvidir. Ona görə də kütləvi şüurda, yəni ictimai şüurda din obyektiv əsaslarda formalaşmalıdır. Bu çox vacibdir. Çünki məqsədindən yayındırılan hər hansı ideologiya cəmiyyətin ümumi maraqlarına zidd olan nəticələrə gətirib çıxara bilir. Ona görə də yeni qanun bütün bunların müqəddəs dinimizin və cəmiyyətimizin maraqlarının lehinə nizamlanması üçün yaxşı hüquqi baza ola bilər.

**Məlahət Rzayeva**

# "Qərəz olmasa, uşaqlarla bağlı dəyişikliyi dəstəkləyirik"



*Tural İrfan: "Yoxsa kimsə öz uşağını məscidə apardığı üçün ona cinayət işi açılacaqsa, bunu təqdir edə bilmərik"*

"Dini etiqad azadlığı haqqında" qanuna bir sıra dəyişikliklər təklif olunub. Qanuna dəyişiklik Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin aprelin 15-də keçiriləcək iclasında müzakirə ediləcək. Nəzərdə tutulan dəyişikliklərdə bir çox məqam əksini tapıb. Kütləvi dini ibadət, ayin və mərasimlərin keçirilmə qaydasına dair tələblər müəyyənləşib. Layihəyə əsasən, kütləvi dini ibadət, ayin və mərasimlər dini ibadət yerlərində və ziyarətgahlarda keçiriləcək. Bundan əlavə, din xadimlərinə dini titullar yalnız dini mərkəzlər tərəfindən veriləcək.

Eyni zamanda dini mərkəz yalnız bir ali dini təhsil müəssisəsi yarada biləcək. Qanuna təklif edilən dəyişikliyə əsasən, dini qurumlar tərəfindən müqəddəs kitabları öyrənmə kursları dini mərkəzlərin razılığı ilə yaradılacaq. Nəzərdə tutulan mühüm bir dəyişiklik də uşaqların dinə etiqad etməyə məcbur edilməsinin qadağan olunması ilə bağlıdır. Layihəyə əsasən, uşaqların dini tərbiyəsi onların fiziki və psixi sağlamlığına təsir göstərməməlidir. Dini ekstremizmin təbliğinə, həmçinin siyasi məqsədlər üçün dinlərarası fərqlərin istifadəsinə yönəldilmiş fəaliyyət qadağandır.

**Məsələni "Şərq"ə dəyərləndirən ilahiyyatçı-alim Tural İrfan qanuna nəzərdə tutulan dəyişiklikləri təqdir edib. Ekspertin sözlərinə görə, "Dini etiqad azadlığı haqqında" qanuna dəyişiklik edilməsi ölkəmizdə dinə, mənəvi dəyərlərə saygının və diqqətin təzahürüdür:** "Dini ayinlərin dini mərkəzlərdə, ibadət yerləri və ziyarətgahlarda keçirilməsi vacibdir. Əslində ölkəmizdə tarixən belə olub. Fəqət bəzi xarici ölkələrin din pərdəsi altında ölkəmizdə inanclı insanların etiqadından sui-istifadə edilir. Ara-sıra küçələrdə yürüş keçirmək cəhdləri olur. Dini siyasi alətə çevirmək cəhdləri yolverilməzdir. Din siyasətə bulaşmamalı, saf və müqəddəs qalmalıdır. Siyasi gedişlərə alət edilməməlidir. Dini titullara gəldikdə isə bunu ümumiyyətlə, gərəksiz hesab edirəm. İslam dinində dini titul yoxdur. Olsaydı, ilk olaraq Peyğəmbərin özünə, səhabələrə verilərdi. İslamda "Hacı, Məşədi, Kərbəlayi, axund, ayətullah..." və s. titulları yoxdur. Bunlar Hindistan brahmanları, xristianlıqda orta əsrlərdəki istismarçı kilsə hakimiyyəti kimi insanları istismar etmək üçün ortaya atılıb. Xüsusi ali imtiyaz qazanmaq üçün "ruhanilərin" uydurduğu bidətlər, yəni dinə sonradan soxulmuş elementlərdir. Odur ki, mən dini titulların əleyhinəyəm. Titul ancaq "ruhanilərin" nəzir mövsümlərində maddiyyat əldə etməsinə xidmət edir ki, bu da onları əsas mənəvi dəyərlərədən uzaq salır".

**İslamşünas vurğulayıb ki, Azərbaycanda uşaqlara dinin məcbur tədrisi heç vaxt olmayıb:** "Ölkəmizdə islamdan başqa dinlərə uşaqları yönləndirmək problemi yoxdur. Burada söhbət islamdan gedir. Obyektiv yanaşma olsa, qərəz olmasa, uşaqlarla bağlı dəyişikliyi dəstəkləmək olar. Yoxsa kimsə öz uşağını məscidə apardığı üçün ona cinayət işi açılacaqsa, bunu təqdir edə bilmərik. Sözün açığı, bu dəyişikliyin alt qatını bilmirəm. Çünki müzakirəyə açıq olmayıb. Ancaq ümumən, dini radikalizm və ekstremizmə qarşı atılan bütün addımlar gecikmiş olsa da, təqdirəlayiqdir".

**T.İrfanın qənaətincə, dini təhsil almaq üçün xarici ölkələrə göndərilən insanlar radikal fikirlərə yiyələnərək məscidlərdə dövlət əleyhinə təbliğat aparırlar. Bunun qarşısı alınmalıdır:** "2016-cı ildə Dini Komitənin sədr müavini Gündüz İsmayılov demişdi ki, Bakı İslam Universitetində təhsil alanların əksəriyyətinin əsas məqsədi formal da olsa, ali dini təhsil haqqında diplom əldə etmək, dini ayin və mərasimləri yerinə yetirməklə imtiyaz qazanmaq, hərbi xidmətdən möhlət almaqdır. Yəni ali təhsilin güzəştlərindən istifadə etməkdir. Eyni zamanda, aparılan təhlillərdən aydın olur ki, ölkə ərazisində xarici dini təbliğatın qarşısının alınması fonunda bu universitetin məzunlarının potensialı tam qaneedici deyil. Universiteti bitirənlərin bir qisminin dini və dünyəvi biliklərə dərindən yiyələnməmələri, yüksək bacarıq nümayiş etdirməmələri, xarizmatik dini şəxsiyyət kimi formalaşmamaları onların ölkədə xarici dini dairələrin maraqlarına xidmət edən qüvvələrə qarşı alternativ kimi çıxış etmək potensialını minimuma endirir. Xatırladım ki, hazırda həmin universitetin 3550 nəfər məzunu Təhsil Nazirliyi tərəfindən dövlət nümunəli diplomlarla təmin edilməyib. Fəqət Qafqaz Müsəlmanları İdarəsi nəinki problemin həllinə çalışır, 3550 məzundan birini belə qəbul edib dərdini dinləmir. Məhz bu fəsadların aradan qaldırılması üçün qanuna dəyişiklik edilməsinə böyük ehtiyac var. Dini sahədə təxirəsalınmaz islahatların aparılmasını zəruri sayıram".

**İsmayıl Qocayev**

## Valideynlər diqqətli olmalıdır

Hətta LGTB rənglərinin uşaq corablarında təbliğinə də rast gəlinir



**Azərbaycanda mağazalarda açıq-aşkar marixuananı təbliğ edən geyimlər satılır. Belə ki, 3-14 yaşlı geyimlərdə bu cür təbliğata çox rast gəlinir.**

Mövcud durum az yaşdan uşaqlarda pis vərdişlərə meyilləndirmə yarada bilər.

**Mövzu ilə bağlı psixoloq Fərqanə Mehmanqızı "Şərq"ə danışıb. Onun sözlərinə görə, göz bir şeyi görməyə öyrəşirsə, artıq adiləşir:** "Nə isə adiləşdiyi vaxtda ictimai qınaq yaranmır. Valideynlər buna daha çox nəzarət etməlidir. Hətta LGTB rənglərinin uşaq corablarında təbliğinə də rast gəlinir. Bu, doğru olmayan halların evimizə qədər gəlib çıxmasına şərait yaradır. Hər kəs öz məsuliyyətini dərk etməli və maariflənməlidir".

**Aygün Tahirqızı**

## Azad olunan ərazilərə ceyranlar buraxılacaq



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi işğaldan azad olunan ərazilərdə heyvanların rentraduksiya tədbirlərini davam etdirəcək.**

Bunu Trend-ə açıqlamasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi Firudin Əliyev deyib.

Onun sözlərinə görə, hazırda bu istiqamətdə işlər davam etdirilir:

"Bildiyiniz kimi, biz Şirvan Milli Parkında yetişdirilən ceyranları Acınohur çölünə buraxmışıq. Bu istiqamətdə təcrübə var. Biz həmin heyvanları işğaldan azad olunan ərazilərdə də buraxmaq istəyirik. Təbii ki, bunun üçün təhlükəsizlik tədbirləri görülməlidir. Bu tədbirlər görüləndən və ərazilər minalardan təmizlənəndən sonra bu tədbirlər də geniş vüsət alacaq".

# İndi uşaqların əksəriyyəti xarici dildən anlayışı var

*Bakıda narkotik maddələri və əxlaqsızlığı təbliğ edən uşaq geyimlərinin satılması nəzarətə alınmalıdır*

Bakı şəhərində narkotik maddələri və əxlaqsızlığı təbliğ edən uşaq geyimlərinin satışı həyata keçirilir. Həmin geyimlər 3-14 yaş aralığında olanlar üçün nəzərdə tutulub. Hamıya məlumdur ki, bu yaş dövrü uşaqların özünüdərketmə mərhələsi hesab olunur.

Belə bir mərhələdə uşaqlara və onların gələcək həyatına mənfi təsir bağışlaya biləcək geyimlərin satışı valideynləri olduqca narahat edir. Bu geyimlərin satışı ilə məşğul olan satıcıların həmin məsələ barədə fikirləri isə daha maraqlıdır. Onlar deyir ki, sözügedən uşaq paltarları hazırda dəbdədir və çox satılır. Geyimlər trend halına çevrilib və artıq çox satıldığı üçün sayı azalıb. Bu isə o deməkdir ki, bir çox hallarda valideynlərin diqqətsizliyi, məlumatsızlığı, savadsızlığı sayəsində gələcəkdə ailələrdə özünü göstərəcək dəhşətli kabus artıq həmin evlərin qapısından içəri girib.

**Məsələ haqqında "Şərq"ə münasibət bildirən "Təmiz Dünya" İctimai Birliyinin sədri Mehriban Zeynalova deyir ki, geyimlərin satıldığı yerlərdə araşdırmalar aparıb, satıcılara xəbərdarlıq edilməlidir:** "Həmin məsələyə iki kontekstdən yanaşmaq lazımdır. Birincisi, bunu müzakirə etmək bir az da məsələnin böyüməsinə gətirib çıxara bilər. Digər tərəfdən isə yanaşdıqda, nəzərə almalıyıq ki, uşaqların əksəriyyəti dil öyrənir və onlar üçün belə yazılar cəlbedici ola bilər. Sahibkarlara bu cür malların satılmaması üçün, ilk növbədə, bir sıra şərtlər qoyula bilər. Düşünmürəm ki, sahibkarlar bunu biləbilə təbliğ etsinlər. Sadəcə olaraq, bəzəkli və diqqətçəkən geyimlər olduğu üçün satıcılar fikirləşir ki, müştəriləri özünə cəlb edəcək və beləliklə daha çox satış edəcəklər. Onları birdən-birə cərimələyib, cinayət məsuliyyətinə cəlb etmək də düzgün olmaz. Hesab edirəm ki, belə halların qarşısını almaq üçün son dərəcə ehtiyatlı olmaq lazımdır. Bu geyimlərin satıldığı yerlərə gedib, araşdırma aparmaq, satıcıların mövqeyini öyrənmək çox vacibdir. Daha sonra bu barədə onları məlumatlandırmaq və xəbərdarlıq etmək gərəkdir. Əslində, həmin mallar, ilk olaraq, gömrük tərəfindən yoxlanılmalıdır. Sahibkar bu geyimləri xaricdən gətirir və ola bilsin ki, üstündə nə yazıldığından məlumatsızdır. Lakin gömrük əməkdaşları xarici dil biliyinə sahib olduqları üçün bunlara nəzarət etməlidirlər. Məsələ barəsində onlar da bir az diqqətli davransalar, sözügedən halların qarşısı alınmış olar".



"Sahibkar bu geyimləri xaricdən gətirir və ola bilsin ki, üstündə nə yazıldığından məlumatsızdır"

**Aytac Ali**

# “Pərviz Bülbüləyə ayıb olsun”



### *Vüqar Əbdülov: “Biz də onları öz meydançamıza buraxmırıq.”*

"Meyxana ciddi sənətdir. Amma janr olaraq şitləşdiriblər. Bəzi aktyorlar şit davranmağa başladılar. Guya meyxanaçılar yüngül və tərbiyəsizdirlər. Bu mənim xoşuma gəlmir. Onlara səslənirəm ki, belə etməsinlər. Meyxana dəyəri olan sənətdir. Vaxtilə ağsaqqallarımız bu janra qulaq asıblar".

**”Şərq ” xəbər verir ki, bu sözləri ”Səhər-səhər” verilişində meyxana ustadı Vüqar Əbdülov deyib. O, həmkarlarına da irad bildirib:** ”Əvvəllər ustadlarımız, məsələn, Nizami Rəmzi, Ağasəlim Çıldaq öz sanballarını qoruyublar. Onlar müharibənin çətin vaxtlarında xalqa dəstək olublar. İndi də biz əsgərimizin, qazimizin, dövlətimizin yanındayıq. Çox ciddi işlə məşğuluq. Bəzi saytlar bir nəfəri götürürlər, onun üzərindən yazırlar. Misal üçün, Pərviz Bülbüləyə səslənirəm, ayıb olsun. Lazım deyil belə şeylər etmək.

Meyxana folklor kimi kinoya, tamaşaya düşüb. Cəfər Cabbarlı kimi dahi tamaşalarında, əsərlərində meyxanaya yer verib. Bu, sadə bir şey deyil. Yaxşı ustadlar var, ciddi meyxanalar deyirlər, böyük şairlərin şeirlərinə nəzirə, təxmis yaza bilirlər. Bunu səhnələrə, arenaya çıxarmaq əvəzinə, vermişik uşaq-muşağın əlinə ki, al bunu xırdala.

Belələri çoxalıb, yəni dərinliyinə gedə bilməyənlər üzdən suyu bulandırırlar. Bir neçə bulaq var, ordan ola bilmirlər, gözləyirlər suyu axırda bulandırsınlar. Ustadlara müraciət etmək lazımdır. Biz neçə dəfə Pərvizə demişik. Tək o deyil, ona qoşulan bir neçə nəfər də var. Onlar deyirlər, bu mənim layihəmdi, ”YouTube” səhifəmdir. Söyləyirlər ki, meydançamız ayrıdı. Biz də onları öz meydançamıza buraxmırıq. Xiridarlar da həmin meyxanaçıları görmək istəmir. Mənə deyiblər ki, Pərvizi gətirmə. Elə vaxtlar var idi ki, deyirdilər Pərviz olmasa gəlməyin. Onda meyxana deyirdi. İndi söyləyirlər ki, lazım deyil. Çünki gəlir orda quyruq bulayır. O, meydanda oynaya bilmir. Artıq öz janrını dəyişib, bizim oyunu oynamaq istəmir”.

**Samirə Ərənlinski**

## Moskvaya toylara göyərti qiymətinə getməyə dəyməz

Sevil və Sevinc bacıları yenə aranı qarışdırdılar



**Sevil və Sevinc bacıları ”Səhər mərkəzi” verilişində qonaq olublar.**

**”Şərq”in məlumatına görə, onlar pandemiya dövründə gəlir əldə etdikləri sahələrdən danışıblar. Sevil deyib ki, sosial şəbəkələr, ”YouTube” və reklamlardan pul qazanırlar:** ”Təbii ki, koronadan əvvəlki dönəmdəki kimi deyil, amma gileylənmirik. Yenə də Moskvaya göyərti qiymətinə getməyə dəyməz. Biz burda rahatıq. Fikrimcə, insan özünə və sənətinə qiymət verməlidir. Orda illərlə yaşayıb, çalışan, öz sözünü deyən müğənnilər də var. Burdan gedən həmkarlarımız ordakı müğənnilərə də mane olurlar. Elə qiymətə ifa edirlər ki, insanlar düşünürlər ki, bir nəfər çağırmaqdansa, Azərbaycandan 10 müğənni dəvət edərəm. Ona görə haqsızlıq olduğunu düşünürəm. Allah bizə dərdi veribsə, öhdəsindən gəlmək lazımdır. Ora köçmək məcbur deyil”.

Sevinc isə bu haqda danışmaq istəmədiyini söyləyib: ”Məncə, hərə özü üçün çalışır. Yəni bu gün infeksiya var, ucuz qiymətə oxuyursan. Postpandemiya dövründə qiyməti qaldıra bilməyəcəksən. Ona görə öz işləridir”.

**Samirə**

# Niyaməddin Musayev özünü yaxşı hiss edir

### *Məleykə Əsədova 30 illik dostunun səhhətindən danışıb*



Aktrisa Məleykə Əsədova koronavirusa yoluxan Xalq artisti Niyaməddin Musayevin səhhəti haqqında danışıb.

”Şərq” xəbər verir ki, o, bu barədə instaqram səhifəsində yazıb. N.Musayevlə fotosunu paylaşan sənətçi bunları söyləyib: ”30 illik sənət dostum, sənətkar, həqiqi insan Niyaməddin Musayev 5 gündür ki, Mərkəzi Neftçilər Xəstəxanasına ”COVİD” xəstəliyi ilə ağır formada yerləşdiriblər. Göydə Allah, yerdə savadlı tibb işçilərinin sayəsində Niyaməddin müəllim dünəndən özünü yaxşı hiss edir.

Tez sağal, sənətkar. Birlikdə verilişlərdə iştirak etməliyik. Azərbaycanda çox savadlı həkimlərimiz var. Bu xəstəliklərin baş aldığı zamanda həkimlərin əziyyətini qiymətləndirmək və təşəkkür etmək lazımdır. Allah Niyaməddin müəllimin simasında bütün sənətkarlarımızı qorusun.

Özümüzü, yaxınlarımızı qoruyaq. Xəstə olduqda evi tərk etməyək. Qayda-qanunlara tabe olaq. Hər bir qanun sağlamlığımız üçündür. Allahımıza dua edək”.

**Samirə Ərəblinski**



## “Zakir Hindistan oğlanlarına oxşayırdı"

Könül Xasıyeva həmkarı ilə tanışlığından danışıb

**Xalq artisti Könül Xasıyeva ”Söhbət var” verilişində qonaq olarkən məktəb illərindən və həmkarı Zakir Əliyevlə tanışlığından danışıb.**

*”Şərq ” xəbər verir ki, o, Z.Əliyevlə Bülbül adına orta ixtisas məktəbində bir sinifdə oxuduğunu söyləyib:*

”Bir partada oturmuşuq. Zakir Hindistan oğlanlarına oxşayırdı, çox şirin idi. Elə gözəl idi ki... Evdə məktəb vaxtlarından şəkillərimiz də var. Bütün qızlar, hamımız Zakiri sevirdik, onun üstündə dava edirdik. Həm də xarakteri yaxşı idi. Mülayim insan idi”.

**Samirə**

## Nazənin saçlarının rəngini dəyişib



**Müğənni Nazənin Salayeva görünüşündə dəyişiklik edib.**

”Şərq” xəbər verir ki, o, qısa sarı saçlarını qaynaqla uzadaraq rəngini dəyişib. Qəhvəyi rəngli saçları ilə yeni fotosunu instaqram səhifəsində paylaşıb.

**Samirə**

# “Hələ ki, kədərli günlərimi yaşayıram”

### *Nazpəri Dostəliyeva media nümayəndələrindən razılıq edib*

Bir müddət öncə Xalq artisti Nazpəri Dostəliyevanın oğlu Əli 41 yaşında, infarktdan dünyasını dəyişdi. Bu qəfil ölüm xəbəri bütün sənət dünyasını dərindən sarsıtdı. Sonralar Nazpəri xanım instaqram səhifəsində paylaşım edərək kədərini dilə gətirdi.

”Şərq” də xalq artistinin özü ilə əlaqə saxlayaraq, başsağlığı verib. Sənətkar çətin günlərində onunla maraqlananları yada salıb:



”Bütün insanlara minnətdarlığımı bildirirəm. Bu dövrdə məni tək qoymadılar. Həm öz Vətənimizdən, həm də Rusiyadan, Alamaniyadan mənə yazıb diqqət göstərənlərə can sağlığı arzu edirəm. Allah razı olsun. Hələ ki kədərli günlərimi yaşayıram. İndi hansısa bir hissimi açıqlaya bilmərəm. Mən mətbuatdan, media nümayəndələrinin hər birindən razıyam. Hamınız baş sağlığı verdiniz. Baxmayaraq ki, pandemiya insanları qorxudub. Amma ürəkdən dərdimə şərik oldunuz”.

**Samirə**

# Murmansk və Reykyavik şəhərləri



## *Dünyada ən uzun müddətli oruc məhz bu şəhərlərdə tutulur*

Builki Ramazan yaz ayına təsadüf etdi. İlbəil də irəliləyərək qışa, getdikcə də payız aylarına düşəcək.

Dünyamız belə dolanarkən bu il ən uzun müddət oruc tutacaq şəhərlərin adları açıqlanıb. Türkiyə Dəyanət İşləri Başqanlığının hazırladığı imsaq vaxtları təqvimində hansı ölkələrdə orucun neçə saat sürüəcəyi göstərilir. "Şərq" "milliyet.com"a istinadən xəbər verir ki, bu il ən uzun müddət - 18 saat 14 dəqiqə oruc tutulacaq şəhərlərdən biri İslandiyanın paytaxtı Reykyavikdir. Reykyavik Yer kürəsinin ən ucqar şimal nöqtəsində yerləşir. Və hətta yay aylarının da soyuq keçdiyi bir yerdir. Bu il Ramazan ayı mayın 12-13-də bitəcək. Bu, gündüzlərin iyul ayınadək uzandığı müddətdir. Belə bir vaxtda dünyanın dörd bir yanındakı müsəlmanlar üçün oruc saatları da fərqlidir. Bəzi ölkələrdə nisbətən qısa, bəzisində nisbətən uzun. Ramazanda ən uzun müddət oruc tutulacaq şəhərlər planetimizin hər iki yarımkürəsindəki ən ucqar nöqtələrdir. Şimal yarımkürəsində ən uzun müddətli oruc Rusiyanın Murmansk şəhərində tutulacaq. Murmanskın ardınca İslandiyanın paytaxtı Reykyavik gəlir. Reykyavikdə iun ayında günəş demək olar ki, heç qürub etmir. Lakin Ramazanın hər il 10 gün irəli gəldiyi nəzərə alınarsa, qarşıdakı illərdə Reykyavikdə də oruc saatları nisbətən qısalacaq. Maraqlıdır ki, Ramazan dekabr ayına təsadüf edəcəyi zaman ən qısa oruc tutulacaq şəhər də Reykyavik olacaq.

**Məlahət**

# 15 milyon ödəyiblər

## Albert Rıjının qətli üçün sifarişçilərin nə qədər pul ödədikləri açıqlanıb



**"Qanuni oğru" Əli Heydərovun (Albert Rıjıy) qətli üçün sifarişçilərin nə qədər pul ödədikləri açıqlanır.**

"Şərq" REN TV-yə istinadən bildirir ki, Albert Rıjının qətlini sifariş edənlər təqsirləndirilən şəxs qismində saxlanılan Mətləb Sultanova 1,5 milyon rubl ödəyiblər. Bu məbləğə killer "Alıye parusa" yaşayış kompleksində mənzil kirayələyib, həmçinin özü və rəfiqəsi üçün fitnes-klubda abonent ödənişləri həyata keçirib. Bundan əlavə Sultanov əlavə daha bir mənzil də kirayələyibmiş. Elə bu mənzildə də o, hüquq-mühafizə orqanları əməkdaşları tərəfindən yaxalanıb. "Rıjı"nın "Alıye Parusa" yaşayış kompleksində qətlə yetirildiyi bazar ertəsi məlum olub. İlkin açıqlamalara görə, qətl döyüş tapança-pulemyotu vasitəsilə həyata keçirilib. Hadisə ilə bağlı cinayət işi açılıb, təhqiqat aparılır. Müstəntiqlər "Rıjı"nın qətlində iki mülahizə üzərində işləyir. Bir mülahizə budur ki, oğru dünyası "avtoriteti" hüquq-mühafizə orqanları ilə əməkdaşlıq etdiyi üçün qətlə yetirib. İkinci mülahizə isə Rıjının məşhur "qanuni oğru" Nadir Səlifovun (Quli) qətlinin gizli sifarişçisi olmasından ibarətdir.

**Məlahət**

# Kərəm Bürsindən örnək addım



**Türkiyəli aktyor Kərəm Bürsin örnək addımı ilə gündəmə gəlib.**

Aktyor "Türk Kızılay koronavirus" layihəsinə dəstək üçün 34 min 840 TL (təxminən 7 min 302 manat) ianə edib.

*Qeyd edək ki, aktyor hazırda "Sen çal kapımı" serialında rol alır.*

# Ev tikintisi zamanı xəzinə tapdı

## Bütün qızıl və gümüşlər səlahiyyətli şəxslərə təhvil verilib



**Hindistanın Telanga əyalətindəki bir tarlada ev inşası üçün qazıntı aparan işçilər qızıl və gümüşlə dolu saxsı qab tapıblar.**

Jangaon bölgəsinin Pembarti kəndində tapılan saxsı qabdan təxminən 190 qram qızıl, 1.72 kiloqram ağırlığında gümüş çıxıb.

"Şərq" türk mediasına istinadən xəbər verir ki, təxminən bir metr dərinlikdə tapılan xəzinə daha sonra səlahiyyətli şəxslərə təhvil verilib.

Xəzinənin dini əhəmiyyətə sahib olduğunu iddia edən sakinlər dua ediblər.

Səlahiyyətlilər qabın içindən 51 qızıl muncuq, 22 qızıl sırğa, 11 qızıl boyunbağı, 26 gümüş çubuq, 5 gümüş zəncir və 6.5 qram ağırlığında yaqutun olduğunu qeyd ediblər.

Jangaon bölgəsinin məmuru Rajendra Prasad bildirib: "Kəşf xəbərini aldıqdan sonra qiymətli əşyaları xilas etdik. Torpaq sahibinə bölgədəki hər hansı bir qazıntı işinə növbəti əmrə qədər başlamamağı tapşırdıq".

**Yeganə**

# Erməni hərbçilərin maketlərini onlar hazırlayıb

## *Biri Venesiyada təhsil alır, digəri heykəltaraşlıqdan dərs deyir*



Bakıdakı Hərbi Qənimətlər Parkında nümayiş olunan erməni əsgər və zabitlərin maketlərinin hazırlanmasında üç heykəltaraş - Kamran Əsədov, Müşfiq Heydərov və Rəşid Məhərrəmov iştirak edib. Onlar birlikdə 26 heykəl ərsəyə gətiriblər.

Azvision.az-ın əməkdaşı heykəltaraşlar Rəşid Məhərrəmov və Kamran Əsədov ilə söhbətləşib.

**- İlk növbədə sizi tanımaq istərdik.**

Rəşid Məhərrəmov: - Azərbaycan Dövlət Rəssamlıq Akademiyasını bitirmişəm. Akademik təhsilim var. Bir çox məşhur heykəltaraşların emalatxanalarında işləmişəm. Hazırda Venesiyada təhsil alıram.

Kamran Əsədov: - Azərbaycan Dövlət Rəssamlıq Akademiyasını bitirmişəm. Fərdi emalatxanamızda işlərimizi davam etdiririk və kənar universitetlərdə heykəltaraşlıqdan dərs deyirəm.

**- Maraqlıdır, bu iş məhz sizə həvalə edildi. Təklif kimdən gəldi?**

Rəşid Məhərrəmov: - Əvvəllər də bir çox tanınmış insanların, qəhrəmanlarımızın maketlərini hazırlamışam. Məsələn, Mübariz İbrahimovun heykəlinin müəllifiyəm. Yəqin ki, əl işlərimi görüb bəyəniblər.

**Kamran Əsədov: - Biz bu işlərlə məşğul oluruq deyə müraciətlər edildi. Layihə 3 nəfər arasında bölüşdürüldü. 16 heykəl Müşfiqlə mənə, 10-u isə Rəşidə məxsusdur.**

**- Erməni obrazlarını hansısa nümunələr əsasında hazırlamısınız, yoxsa fantaziyanızın məhsuludur?**

Rəşid Məhərrəmov: - Mediadan ermənilərə məxsus faktları araşdırmışam. Əlbəttə, öz ideyam əsasında hazırlamışam. Konkret hansısa adamın obrazı deyil.

Kamran Əsədov: - Çalışırdıq ki, ən eybəcər obrazlar olsun. Adətən cəhd edirik ki, makisumum gözəl bir şey işləyək. Bu dəfə isə əksinə oldu. Vaxt aparan və çətin proses idi. Qartal burun formaları, kəllə sümüyünün arxalarının olmaması və digər cizgilərdən istifadə edib hazırladıq.

**- Maketləri hazırlamaq üçün nə qədər vaxt lazım oldu?**

Rəşid Məhərrəmov: - Yanvar ayından indiyə qədər gecə-gündüz işləyirik. Normalda 30 heykəli bir ilə və daha çox müddətə hazırlayırlar. Amma biz 3 ay yarıma bitirdik.

**- Bilmək olar, maketlər üçün nə qədər qonarar almısınız? Bu, oxucularımız üçün də maraqlıdır.**

**Kamran Əsədov:** - Yaxşı olar ki, sirr qalsın.

**Rəşid Məhərrəmov:** - Mən də açıqlamaq istəməzdim.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**
**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev
Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**
Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı. **Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073**
**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111 Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 678

# Dünyanın ən böyük dovşanı oğurlandı

## Polis hər yerdə Dariusu axtarır



**Keçmiş Pleyboy modeli və məşhur dovşan yetişdiricisi Annette Edvardsın dovşanı qaçırılıb. Model İngiltərənin Vorçester şəhərində evindən oğurlanan dovşanı tapan şəxsi mükafatlandıracağını açıqlayıb.**

"Şərq" "Ntv.com.tr"yə istinadən bildirir ki, 129 santimetr uzunluğundakı Darius adlı heyvan 2010-cu ildə Ginnesin dünya rekorduna düşüb və o vaxtdan bəri dünyanın ən böyük dovşanı olaraq rekordunu qoruyur.

68 yaşlı bir uşaq anası A.Edvards 10 yaşlı dovşanının itkin düşməsindən çox kədərləndiyini və polisin hər yerdə Dariusu axtardığını söyləyib. Lakin bu günə qədər şübhəli şəxslərin olduğuna dair heç bir detal tapılmayıb.

**Yeganə**

# İlıq su ilə doldurulmuş əlcək

## Bu foto sosial mediada gündəm oldu



**Sosial mediada ılıq su ilə doldurulmuş əlcək fotosu geniş müzakirələrə səbəb oldu.**

Braziliyada izolyasiya alınan koronavirus xəstələrinə toxunma hissi verməsi üçün əllərinə bağlanılan isti su ilə doldurulmuş əlcək fotosu bir çox izləyicilər tərəfindən paylaşılıb.

Həmin fotoya bəziləri "Tanrının əli" şərhini yazarkən, bəzi tibb işçiləri isə bunun hazırda istifadə edildiyini bildiriblər.

Mütəxəssis Eric Feigl-Ding xəstələrin tək başına öldüyü, sevdiklərinin toxunmasını arzuladığı xəstəxana otaqlarında bu duyğunu təqlid etmək üçün tibb bacıları tərəfindən belə bir şeyin hazırlandığını yazıb. (medicina.az)

*Qeyd edək ki, psixoloqlar bunun hətta ölüm sayını belə azalda biləcəyini hesab edirlər.*

# Əsrin fırıldaqçısı vəfat etdi

## Bernard Medoff 150 il həbs cəzasına məhkum edilmişdi





**Onlarla milyard dollarlıq fırıldağa görə 150 il həbs cəzasına məhkum edilmiş Bernard Medoff ABŞ-da həbsxanada vəfat edib.**

Sputnik Azərbaycan-ın məlumatına görə, "əsrin fırıldaqçısı", "əsrin piramidasının qurucusu" adlandırılan Medoff NASDAQ fond birjasının direktorlar şurasının sədri olub.

1960-cı ildə Medoff Uoll-Stritdə "Bernard L. Madoff Investment Securities LLC" firmasını təsis edərək 2008-ci il dekabrın 11-dək ona rəhbərlik edib. Həmin vaxt o, dünya tarixində ən iri maliyyə piramidasını qurmaqda ittiham edilib. Bildirilir ki, biznesmenin maliyyə fırıldağından 3 milyonadək insan zərər görüb. Maliyyə itkiləri 17,5 milyard dollar olub. 2009-cu il iyunun 29-da Bernard Medoff Nyu-York məhkəməsinin hökmü ilə 150 il həbs cəzasına məhkum edilib.

*Medoff haqqında Hollivud da film çəkib: 2017-ci ildə ekranlara çıxan "Yalançı, Möhtəşəm və Dəhşətli" filmində fırıldaqçının rolunu Robert de Niro canlandırıb.*








# Erməni hərbçilərin maketlərini onlar hazırlayıb

## *Biri Venesiyada təhsil alır, digəri heykəltəraşlıqdan dərs deyir*



**Bakıdakı Hərbi Qənimətlər Parkında nümayiş olunan erməni əsgər və zabitlərin maketlərinin hazırlanmasında üç heykəltaraş - Kamran Əsədov, Müşfiq Heydərov və Rəşid Məhərrəmov iştirak edib. Onlar birlikdə 26 heykəl ərsəyə gətiriblər.**

*Azvision.az-ın əməkdaşı heykəltaraşlar Rəşid Məhərrəmov və Kamran Əsədov ilə söhbətləşib.*

**- İlk növbədə sizi tanımaq istərdik.**

**Rəşid Məhərrəmov:** - Azərbaycan Dövlət Rəssamlıq Akademiyasını bitirmişəm. Akademik təhsilim var. Bir çox məşhur heykəltaraşların emalatxanalarında işləmişəm. Hazırda Venesiyada təhsil alıram.

**Kamran Əsədov:** - Azərbaycan Dövlət Rəssamlıq Akademiyasını bitirmişəm. Fərdi emalatxanamızda işlərimizi davam etdiririk və kənar universitetlərdə heykəltaraşlıqdan dərs deyirəm.

**- Maraqlıdır, bu iş məhz sizə həvalə edildi. Təklif kimdən gəldi?**

*(Davamı səh: 15-də)*

# "Onun qanı axarsa cadu pozulacaq..."

## Ata 4 yaşlı qızına kabus yaşatdı





**Türkiyənin Adana bölgəsində ona cadu edildiyini iddia edən Mustafa adlı şəxs yaşadığı birmərtəbəli evinin üstünə çıxaraq 4 yaşındakı qızı Elanı aşağı atmağa cəhd edib. Qızının qanı axarsa cadunun batil olacağını deyən adamın əlindən azyaşlını babası xilas edə bilib.**

Hadisə günorta saat 12 radələrində Tellidere məhəlləsində baş verib. Mustafa A. evdəki gül dibçəklərini və banklarını yerə atan zaman məhəllə sakinləri onu görüb və dərhal polisə zəng edibləR. Şikayət üzrə hadisə yerinə polis və tibb işçiləri gəlib. Polislər müdaxilə etmək istəyən vaxt həmin şəxs "qızımı aşağı atacam, əgər onun qanı axsa cadu pozulacaq" deyib. Hadisədən qorxan azyaşlı Ela "Ata, qurban olum, məni yerə atma, evə, anama gedək" deyə yalvarıb. Bir az keçəndən sonra Mustafanın qayınatası Mehmet Y. hadisə yerinə gəlib. O, kürəkənindən uşağı buraxıb dərhal təslim olmasını xahiş edib. Bu zaman Mustafa damdakı xortumla aşağıdı sulamağa başlayıb. Daha sonra o, qayınatasının dama çıxmağına icazə verib və ətrafdakılar olanları böyük bir təəccüblə izləyiblər. Mustafanın bir anlıq fikrinin dağılmasından istifadə edən Mehmet bəy nəvəsini onun əlindən xilas etməyə nail olub. Polislər tərəfindən gözyaşardıcı qazla zərərsizləşdirilən Mustafa A. həbs edilib.

Bu şəxsin psixoloji problemləri olduğu və evdəki əşyaları sındırdığı bildirilib. Məlum hadisədən əvvəlki gecə evdə dəm qazını açaraq həyat yoldaşı Edaya "cənnətə gedəcəyik" dediyi də iddia edilir.

**Aytac Ali**




# Karanın 2 yaşı oldu

## Məşhur cütlük evlərində sadə qonaqlıq təşkil ediblər

**Aktyor Burak Özçivitlə Fahriye Evcen cütlüyü oğlu Karana ad günü keçiriblər.**

Onlar 2 yaşı tamam olan övladları üçün evlərində sadə qonaqlıq təşkil ediblər.

Bununla bağlı Evcen İnstaqram hesabında fotolar paylaşıb. O "İllərimiz hər zaman gülərək, sevinc dolu keçsin. Nə yaxşı ki, doğuldun canım oğlum" sözlərini yazaraq, ad günündən çəkilən şəkilləri bölüşüb.

*Övladları Karan üçün heç bir hədiyyə qəbul etməyən cütlük onun adına xeyriyyə fondlarına bağışlanan ianələr üçün minnətdarlıqlarını bildiriblər.*